

## Çap mediası və kitab sahəsində dövlət dəstəyi gücləndirildi

5

Səs
№ 222 (6422) 4 dekabr 2021-ci il. Qiymәti 40 qәpik

# Prezident hökumətə

2



# Ordu quruculuğunun gücləndirilməsini tapşırdı!

*İlham Əliyev: "Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq, biz daha da möhkəm orduya malik olacağıq"*

# Budurmu "Qərb demokratiyası"?!

13






3

## YAP nümayəndə heyəti Ukraynada Ulu Öndərin və akademik Zərifə Əliyevanın abidələrini ziyarət edib

14



## "Əli Kərimli cavab verməlidir"

"Vertolyot qəzasında həlak olmuş 14 şəhid zabitimizin dəfni günü Əli Kərimli və onun tör-töküntüləri olan milli xainlərin icazəsiz aksiya keçirməyə cəhd göstərmələri, ictimai asayişi pozan qanunsuz hərəkətləri şəhidlərimizə...

## Putin və Ərdoğan Azərbaycan-Ermənistan münasibətlərini müzakirə ediblər

Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. "Report" Kremlin mətbuat xidmətinə istinadən xəbər verir ki, Türkiyə Prezidentinin xahişi ilə Vladimir Putin Rusiya, Azərbaycan və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə Qarabağla bağlı Bəyanatın imzalanmasının ildönümünə həsr olunmuş üçtərəfli görüşünün əsas nəticələri barədə məlumat verib.



Danışıqlar zamanı qeyd edilib ki, Bakı və İrəvanın regionda sabitliyin təmin edilməsi kontekstində qarşılıqlı fəaliyyətə, habelə iki dövlət arasında sərhədin delimitasiyası və demarkasiyası mexanizmlərinin yaradılmasına hazırlığının təsdiqlənməsi vacibdir. Bundan əlavə, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı praktiki məsələlərin həlli istiqamətində fikir mübadiləsi aparılıb. R.T.Ərdoğan Rusiyanın vasitəçilik rolunun vacibliyini qeyd edərək, səylərin gələcək koordinasiyasının, o cümlədən atəşkəs rejiminə və münaqişə zonasında bütün hərbi əməliyyatlara nəzarət etmək üçün Rusiya-Türkiyə mərkəzinin imkanlarından istifadə edilməsinin tərəfdarı olduğunu bildirib.

## Ermənilərin növbəti təxribatı : Xocavənddəki atışmanın səbəbi bəlli oldu!





## Döyüş tipli oyunların uşaqların gələcəyinə təsiri necədir?

Smartfonların, planşetlərin, fərdi kompüterlərin və oyun konsollarının geniş yayılması özü ilə bərabər yeni problemləri də gətirib. Çox kiçik yaşlardan başlayaraq bütün yaş qruplarının

10

## Ronaldodan tarixi rekord: 800-cü qol!



*"Mançester Yunayted"-in hücumçusu Kriştiano Ronaldo, Premyer Liqa matçında "Arsenal" qarşısında karyerasında yeniliyə imza atıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, 800-cü qolunu vuran ilk oyunçu olub.*

16



7

## Cəmiyyətdə əlillərə münasibət necədir?

*1992-ci il oktyabrın 14-də Əlillər Onilliyinin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq Günü" kimi qeyd olunması haqqında Bəyannamə...*

# Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı - Qalib Lider



İlham Əliyev: "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz"




***Bəli, ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır.***

Artıq 44 günlük qələbəmizdən bir il keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı - ”Qarabağda cənnət yaradacağıq” vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, ”Qarabağ Azərbaycandır və nida işarəsi” deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etdi, hazırda da ”Qarabağda cənnət yaradacağıq” vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəs alan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır, güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq. Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.




### Qalib Liderin bütün dünyaya növbəti mesajı...

”Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz”, -deyən Ali Baş Komandanımızın ”Dəmir yumruq” siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad etdi. Və torpaqların sahibləri öz torpağına sahib oldu. Hazırda Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələ işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Və dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz.

Dövlət başçımızın dediyi kimi: ”Çünki bu torpaqların sahibləri biz - Azərbaycan xalqıdır”. Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də ədaləti bərpa edərək öz torpaqlarımıza sahib olduq.”Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq”. Prezident İlham Əliyev bu sözləri 3 il əvvəl, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciətində demişdi. Prezident İlham Əliyevin çıxışlarında bu məzmunlu ifadələr çoxdur. Çünki dövlət başçısının hər bir çıxışında, görüşlərində, müraciətlərində, təbriklərində torpaqlarımızın işğaldan azad olunması məsələsi prioritet idi. Tarix boyu belə olub: əgər qazanılmış hərbi qələbənin ardınca quruculuq prosesi başlanırsa, deməli, o qələbəni əldə etmiş xalq parlaq gələcəyə doğru gedən yoldadır. Bu gün Qarabağda, Şərqi Zəngəzurda təməli qoyulan hər tikili, üst-üstə hörülən hər daş, torpağa əkilən hər fidan bu sevginin ifadəsidir. Böyük gücün, zəhmətin, dünyaya fayda vermək arzusunun, Azərbaycan insanının quruculuq əzminin təcəssümüdür.





### Bərpa və yenidənqurma işlərinin miqyası çox əhatəlidir

Ermənilərin 30 ilə yaxın işğal dövründə dağıtdıqları, vandallıq və talan etdikləri torpaqlarımıza dövlətimiz indi yeni həyat bəxş edir. 44 günlük Vətən müharibəsinin başa çatmasından cəmi bir il ötməsinə baxmayaraq, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin miqyası olduqca məştablıdır. Hazırda azad olunmuş bütün ərazilərimizdə kompleks şəkildə yeni infrastruktur yaradılır. Avtomobil və dəmir yolları çəkilir, hava limanları inşa olunur. Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisi ilə etibarlı təminatı üçün demək olar ki, bütün rayonlarda yarımstansiyalar inşa olunur, bir neçə su elektrik stansiyasının və yarımstansiyanın, Suqovuşan və Talış kəndlərinə çəkilən avtomobil yollarının, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi və ”Zəfər yolu”nda son tamamlanma işlərinin aparılması, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin bərpasına göstərdiyi yüksək diqqətin təcəssümüdür.

İşğaldan azad edilmiş şəhər və rayonlarımızın bərpası və yenidənqurulması istiqamətində işlər sürətlə gedir. Şuşanın bərpası istiqamətində qısa müddətdə mühüm işlər görülüb və Qarabağın tacı tarixi şöhrətini özünə qaytarır. Digər rayonların bərpası ilə bağlı müxtəlif layihələr icra olunmaqdadır. Oktyabrın 4-də Prezident İlham Əliyevin iştirakı ilə Cəbrayıl şəhərinin bərpasının, həmçinin, burada yaşayış kompleksinin, məktəb və xəstəxana binalarının təməlinin qoyulması bunu təsdiq edir. Qarabağ və Şərqi Zəngəzurun böyük iqtisadi potensialı var. İşğaldan azad olunmuş rayonlarımızın istər sənaye, istər kənd təsərrüfatı potensialı çox genişdir. Bu torpaqlar həm bərəkətli, həm də yeraltı və yerüstü sərvətlərlə zəngindir. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun iqtisadi resurslarının hərəkətə gətirilməsi, o cümlədən azad olunmuş torpaqlarımızın kənd təsərrüfatına cəlb edilməsi bütövlükdə respublikamızın iqtisadi inkişafına və iqtisadiyyatımızın diversifikasiyasına, xüsusən qeyri-neft sektorunun genişlənməsinə böyük töhfələr verəcək. Prezident İlham Əliyevin fərmanına əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması da düşmən tapdağından xilas olunan torpaqlarımızın iqtisadi potensialının hərəkətə gətirilməsinə təkan verəcək. Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına səbəb olacaq, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq. Göründüyü kimi, mənfur düşmən torpaqlarımızı nə üçün işğal etdiyini, niyə onillərlə dağıntılar apardığını, ötən 30 il ərzində bundan nə qazandığını indiyədək heç kimə doğru-dürüst izah edə bilməyib. Təbii ki, işğalçılar bədnam əməllərinin əvəzini ödəməli olacaqlar. Azərbaycan isə Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı qarşıya qoyulan vəzifələrin hər biri vaxtında icra olunacaq və çox tezliklə Qarabağa - uzun müddət işğal altında qalmış ərazilərə həyat qayıdacaq.

Ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş Qarabağ torpaqları ilə bağlı hədəfləri çoxdur. Bu hədəflərə nail olmaq üçün qarşıda dayanan əsas vəzifə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və burada yenidənqurma işlərinin daha sürətlə və daha geniş miqyasda aparılmasını təmin etməkdir. Prezident İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə şübhə edilə bilməz.

### “Azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq”

Bəli, bu gün bütün bərpa işləri planlı şəkildə və yüksək səviyyədə görülür. 2021-ci ilin ilk ayından başlayaraq işğaldan azad olunmuş torpaqlara Qalib Liderinin Qələbə yürüşü hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb... Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

# YAP nümayəndə heyəti Ukraynada Ulu Öndərin və akademik Zərifə Əliyevanın abidələrini ziyarət edib







*Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Ukraynaya səfəri başlayıb. SİA-nın məlumatına görə, səfərin ilk günü nümayəndə heyəti Kiyevdə ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda Ulu Öndərin abidəsi önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad edib.*











Sonra YAP nümayəndə heyəti İrpen şəhərinin meri Oleksandr Markuşin və meriyanın rəhbər şəxslərinin iştirakı ilə akademik Zərifə Əliyevanın İrpen şəhərindəki büstü önünə tər çiçəklər düzüb, xatirəsinə dərin ehtiram ifadə edib.

Tədbirdə çıxış edən mer Oleksandr Markuşin bildirib ki, İrpen şəhəri Azərbaycan üçün doğmadır. Qeyd edib ki, İrpen ilə Azərbaycanın bir sıra şəhərləri arasında yaxşı münasibətlər mövcuddur.

Öz növbəsində YAP Sədrinin müavini Tahir Budaqov Azərbaycanla əlaqələrə göstərdiyi diqqətə görə şəhər merinə təşəkkürünü bildirib və işlərində uğurlar arzulayıb.

Azərbaycandan gələn nümayəndə heyəti daha sonra İrpen şəhərində Zərifə Əliyeva adına 12 saylı orta məktəbində olub. Məktəbin direktoru Valentina Antonenko çıxış edərək akademik Zərifə Əliyevanın şərəfli ömür yolundan danışıb. Bildirib ki, Heydər Əliyev kimi dahi şəxsiyyətə sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanım Əliyeva ziyalı alim, mehriban və qayğıkeş ana obrazının təcəssümünə çevrilib. Qeyd edib ki, Zərifə Əliyeva görkəmli alim olmaqla yanaşı, Prezident İlham Əliyev kimi müdrik dövlət başçısının anası olub. Qürurverici haldır ki, belə dəyərli şəxsiyyətin xatirəsi Azərbaycanla yanaşı, Ukraynada da hər zaman böyük ehtiramla anılır.

İrpenin Azərbaycan üçün doğma şəhər olduğunu qeyd edən Tahir Budaqov bildirib ki, ölkəmiz bu şəhərin inkişafına hər zaman töhfəsini verməyə hazırdır. Tahir Budaqov vurğulayıb ki, İrpen şəhərində görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın adını daşıyan istirahət parkı, mərkəzi küçə və orta məktəb Azərbaycan ilə Ukrayna arasında sarsılmaz dostluq körpüsünə çevrilib. Azərbaycan hər zaman olduğu kimi, bundan sonra da bu şəhərə yardımlarını davam etdirəcək.

YAP nümayəndə heyəti, həmçinin məktəbdə akademik Zərifə Əliyeva adına muzeylə tanış olub. Daha sonra YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İrpenə səfərlə bağlı yerli telekanala müsahibə verib.

Qeyd edək ki, YAP nümayəndə heyətində Partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Veteranlar Şurasının sədr müavini Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP İdarə Heyətinin üzvü, Bakı, Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Milli Məclisin deputatı Ramil Həsən, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli təmsil olunur.



2022-ci ilin dövlət büdcəsi miqyasına, istər gəlir və xərclər həcminə, istərsə də sosialyönümlülüyünə görə müstəqil Azərbaycanın ən böyük büdcəsidir. Hamımız böyük fəxr hissi keçiririk ki, bir il bundan əvvəl işğal altında olan torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən azad edilib. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov parlamentin dekabrın 3-də keçirilən iclasında deyib.

# Baş nazir: "2022-ci ilin dövlət büdcəsi müstəqil Azərbaycanın ən böyük büdcəsidir"

Baş nazir qeyd edib ki, hökumət növbəti ildə də iqtisadi dayanıqlılığın təmin olunması, makroiqtisadi sabitliyin qorunması və milli valyuta məzənnəsinin dayanıqlılığının artırılması, sosial müdafiə və pandemiya ilə mübarizə tədbirlərinin ardıcıl davam etdirilməsi, işğaldan azad olunmuş ərazilərin bərpasını, yenidən qurulmasını və ölkə iqtisadiyyatına inteqrasiyasını, ölkəmizin hərbi qüdrətinin daha da artırılmasını, təhsil, səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğun inkişaf etdirilməsini, ərzaq təhlükəsizliyinin təmin edilməsini, iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyasının prioritet vəzifələr kimi müəyyənləşdirib. Ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyin daha da gücləndirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qarşımızda qoyulan əsas vəzifələrdən biridir. Ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, Ordumuzun müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədilə zəruri hərbi infrastrukturun yaradılması, hərbiçilərin sosial məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görüləcək tədbirlər üçün maliyyə təminatının yaradılması hökumət üçün əsas prioritet xərclər sırasındadır.

Xatırladaq ki, Milli Məclis Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq 2022-ci il dövlət büdcəsi haqqında qanun layihəsini üçüncü oxunuşda təsdiqləyib. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi parlamentin dekabrın 3-də keçirilən iclasının gündəliyinə daxil edilib. Qanun layihəsinə əsasən, 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 816 000,0 min manat, o cümlədən, mərkəzləşdirilmiş gəlirlər 25 874 497,0 min manat, yerli gəlirlər isə 941 503,0 min manat müəyyən olunur.

2022-ci il dövlət büdcəsinin xərcləri 29 879 000,0 min manat, o cümlədən mərkəzləşdirilmiş xərcləri 28 900 041,0 min manat, yerli xərcləri isə 978 959,0 min manat) məbləğində müəyyən edilir. 2022-ci il İcmal büdcənin gəlirləri 27 milyard 677 milyon manat, icmal büdcənin xərcləri isə 32 milyard 906 milyon manat məbləğində nəzərdə tutulub.

# Media kapitanları və kitab naşirləri yeni qanundan MƏMNUNDUR

***Bildiyimiz kimi, Milli Məclisin bu gün keçirilən iclasında Vergi Məcəlləsinə dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarılıb. Dəyişikliklə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiqlənən kütləvi informasiya vasitələri məhsullarının və kitabların, (elektron kitablar istisna olmaqla) habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı, mətbu kütləvi informasiya vasitələri məhsullarının və kitabların, o cümlədən elektron kitabların, habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyətindən (reklam xidmətləri istisna olmaqla) ƏDV tutulmayacaq.***

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib. Bəs gəlin görək məlum qərara media kapitanlarının, kitab yazarlarının baxışı necədir? SİA məsələ ilə bağlı onların fikrini sizə təqdim edir.



**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli:** "Ölkədə çap məhsullarının istehsalı, yayımı və hazırlanması üzərində güzəştlərin tətbiq olunması ilə bağlı təşəbbüslər uzun müddətdir ki, davam edir. Onun sözlərinə görə, çap məhsullarının həmçinin kitab ləvazimatlarının üzərindən ƏDV-lərin ləğv edilməsi sevindirici haldır. Yəni çap məhsullarına, o cümlədən kitablara, qəzetlərə və digər çap versiyasında olan və insanların məlumatlandırılmasına, maarifləndirilməsinə xidmət edən məhsulların insanlar üçün əlçatan olması olduqca müsbət haldır. Bununla bağlı ölkədə uzun müddətdir ki, təşəbbüslər həyata keçirilir. Bir daha vurğulayıram təkcə kitablar üçün deyil ümumilikdə çap formasında hazırlanan və yayılan bütün məhsullar üçün o cümlədən qəzetlər üçün də müəyyən güzəştlərin olması təşəbbüsləri ortalıqdadır. O baxımdan kitablarla bağlı belə bir addımın atılması sevindirici haldır. İnsanları həvəsləndirmək, onlarda kitablara maraq yaratmaq, mütaliənin artması üçün bu cür tətbiqlərin həyata keçirilməsi olduqca müsbət haldır və hesab edirəm ki, bu hallar ölkədə maarifləndirmə, məlumatlandırma işinə müsbət təsir göstərən amillərdir. Arzu edirəm ki, bu hallar ardıcıl olaraq həyata keçirilsin. Başqa formalı hallarda da tətbiq olunsun ki, çap məhsullarının artmasına və insanlar üçün faydalı bir əmsala çevrilməsinə təsir göstərsin".



**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** "Bəzi məhsullara ƏDV-nin ləğvi barədə qəbul olunmuş qərar çoxdan gözlənilən idi. Xüsusilə də bunun ölkəmizdə çap mediasının müəyyən komponentlərinə aid olan hissələri ilə bağlı məsələ bizim üçün də çox maraqlı idi. Çünki illərdir ki, ölkəmizdə çap məhsullarının qiymətinin məhz idxal rüsumları və ƏDV üzündən xeyli dərəcədə yuxarı olduğu ilə bağlı narahatlıq var idi. Hətta dəfələrlə idxal olunmuş çap məhsullarına və eləcə də qəzet kağızına əlavə dəyər vergisinin götürülməsi ilə bağlı dəfələrlə biz hakimiyyət strukturlarına müraciət etmişdik. Hər dəfə bu məsələ məqbul qarşılansa da amma onun barəsində qərar qəbulu illərlə uzanaraq nəhayət gəlib indiki həddə, indiki dövrə təsadüf etdi. Çox yaxşı bir qərardır.

Biz əlbəttə onun praktikada müsbət nəticələr verəcəyini gözləyirik. Ancaq təəssüf ki, bu qərarın qəbul olunması ilə bağlı söz-söhbətlər və müzakirələr başlayandan gələcəyə yönəlik ümidverici vəziyyətin yaranmağı ilə bərabər eyni zamanda narahatlıqlar da baş qaldırıb. Məsələn, qəzet kağızına əlavə dəyər vergisinin götürülməsi ilə bağlı qərar bir sıra çap media ilə bağlı insanlarda ümidlər yaradırdı ki, qəzetlərin çapı, qəzet kağızı xeyli dərəcədə ucuzlaşacaq. Amma hələ bu qərar qüvvəyə minməmiş artıq indidən bir sıra qəzet kağızının satışı ilə məşğul olanlar avtomatik şəkildə qiyməti qaldırıblar. Məsələn, mən sizə deyim ki, əgər yayın ortalarında qəzet kağızının bir tonu hardasa 650 dollara yaxın idisə, bugün 5-3 dollar aşağı-yuxarı olmaq şərtilə 850 dollar civarındadır. Bu olduqca gözlənilməz və məntiqsiz bir prosesdir. Çünki, ölkədə hər kəs kağıza, bir sıra məhsullara o cümlədən də kağıza digər çap məhsullarına ƏDV-nin götürülməsinin müsbət tendensiya doğuracağını gözlədiyi bir halda birdən-birə bu qərar qüvvəyə minməmiş məsələn, qəzet kağızının qiyməti bu dərəcədə bahalaşır. Sözsüz ki, qəzet kağızı ilə bərabər digər çap ləvazimatları da yəqin ki, bahalaşdırılacaq. Heç şübhə yoxdur ki, bu müəyyən işbazların işidir. Onlar ƏDV-nin ortadan qaldırılacağı ana qədər artıq bazarda indikindən çox-çox fərqli və yüksək şəkildə, səviyyədə oturuşmuş bir qiymət formalaşdırmaq istəyirlər. Aydın məsələdir ki, bu yaxşı niyyətli proses deyil. Ona görə də əlavə dəyər vergisinin götürülməsi ilə əlaqədar sahələrdə pozitiv və müsbət dəyişikliklərin başlanmasında gərək hökumətin özü də maraqlı olsun ki, qəbul olunmuş bu müsbət niyyətli qərar son nəticədə ancaq və ancaq işbazlara fayda gətirməsin. Cəmiyyətin ən geniş təbəqələri bundan fayda götürə bilsin. Təkrar edirəm ki, çox gözlənilməzdir ki, ƏDV-nin götürülməsi ilə bağlı qərar hələ qüvvəyə minməmiş artıq bəzi çap məhsullarına, o cümlədən qəzet kağızının qiyməti az qala 25-30 faiz bahalaşdırılıb. Bu olduqca anormal bir prosesdir".



**525-ci qəzetin baş redaktoru Rəşad Məcid:** "Bu məsələnin Vergi Məcəlləsinə dəyişikliklə bağlı müzakirəsində Milli Məclisin İqtisadiyyat Komitəsində mən də iştirak edərək orada fikirlərimi bildirmişdim. Qəzetlərin çapında ƏDV yoxdur. Bu çoxdan yığışdırılıb. Qəzetdə yalnız kağıza ƏDV var. Bunun da ləğv olunmasının ağır iqtisadi vəziyyətdə olan qəzetlərə yüngül təsiri olacaq. Amma burada əsas kitab çapıdır ki, bilirik kitab satışı da azalıb. Kitab çapı və kitab satışında olan ƏDV idi ki, bununla da bağlı nəşriyyatlar neçə vaxtdır müzakirələr aparırdılar. Çox müsbət haldır ki, bu cənab Prezidentin tövsiyyəsi ilə ƏDV ləğv olunur. Hesab edirəm ki, bu kitab satışına, qəzetlərə və yazılı mətbuata təsir göstərəcək. Arzu edərdik ki, kitabların satışına və qiymətlərinə müəyyən təsir göstərsin".



**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı:** "Kağız məmulatları üzərindən ƏDV-nin götürülməsi qəzetlərdə müəyyən qədər maliyyə imkanı yaradacaq. Bilirsiniz ki, qəzetlər kağızla çap olunur. Ölkədə də kağız istehsal olunmur və xaricdən gətirilir. ƏDV-nin götürülməsi və hətta çap məhsulları üzərindən 18 faizin bütövlükdə götürülməsi müsbət dəyərləndirilməlidir. Bu da qəzetlərin əmtəə dəyərinin azalmasına gətirib çıxaracaq. Həm də kitab bazarının inkişafına öz müsbət təsirini göstərəcəyindən əminəm".



**"Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu:** "Bu böyük bir işdir. Kitabın qiyməti 15-20% ucuzlaşacaq, kağız gətirilməsi asanlaşacaq. Nəşriyyatların sayı artacaq. Bu sahə inkişaf edəcək. Kitab dükanlarının da sayı artacaq. Rəqabət olacaq. Yazıçıların da sayı artacaq. Bu həm də dövlətin kitaba olan xoş münasibətinin göstərişidir".

***Ayşən Vəli***

# Çap mediası və kitab sahəsində dövlət dəstəyi gücləndirildi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***





***Milli Məclisin dünən keçirilən iclasında Vergi Məcəlləsinə dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarılıb. SİA-nın xəbərinə görə, dəyişikliklə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiqlənən kütləvi informasiya vasitələri məhsullarının və kitabların, (elektron kitablar istisna olmaqla) habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı, mətbu kütləvi informasiya vasitələri məhsullarının və kitabların, o cümlədən elektron kitabların, habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyətindən (reklam xidmətləri istisna olmaqla) ƏDV tutulmayacaq.***



Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib. Bəs bu güzəşt mətbuat, nəşriyyat və poliqrafiya sahəsində hansı müsbət nəticələrə səbəb olacaq? Bu yazıda bu barədə danışmaq istəyirik.

Qeyd etdiyimiz kimi, bu güzəşt tək qəzetlər üçün deyil, eyni zamanda ölkədə nəşriyyat və poliqrafiya sahəsində çalışan insanlar üçün də əhəmiyyət kəsb edir. Yəni, burada söhbət təkcə qəzetlərdən, çap mətbuatından getmir. Bundan nəşriyyatlar, mətbəələr, poliqrafiya müəssisələri, həmçinin bu materialları ölkəyə idxal edənlər də faydalanacaq.

Məlum olduğu kimi, sön dövrlərdə kitab sahəsində vəziyyət yaxşı deyil. Kitab oxuyanlar onsuz da azalıb, üstəlik kitabların qiymətinin baha olması onları hamı üçün əlçatan etmir ki, bu da oxucu sayına, kitab satışına ciddi təsir göstərir.

Kitab mağazalarının və dəftərxanaların vergisi azalacaq. Kitablarla yanaşı, bir sıra dəftərxana ləvazimatlarının da qiyməti ucuzlaşacaq. Müəlliflər öz kitablarını daha ucuz qiymətə çap etdirə biləcəklər.

Bu qərar qəzetlərin, jurnalların da yükünü kifayət qədər azaldacaq. Məlum olduğu kimi, çap mətbuatının fəaliyyəti üçün böyük vəsait tələb olunur. Bu aspektdən qəbul olunan qərarı, şübhəsiz, Azərbaycan dövlətinin mediaya, xüsusən də mətbuatın klassik siması olan qəzetçiliyə növbəti dəstəyi kimi qiymətləndirmək lazımdır. Çünki, bu, qəzetlərin maliyyə vəziyyətinə müsbət təsir göstərəcək.

Onsuz da ölkəyə idxal edilən qəzet kağızına tətbiq edilən vergi və rüsumlar dövlət büdcəsinə iri həcmdə, diqqət çəkən səviyyədə gəlir vermir. Amma əksinə, həmin kiçik vəsait çap mediasi üçün həyati əhəmiyyət daşıyır. Çap mediası üçün nəzərdə tutulan hər bir manat ölkənin informasiya məkanı üçün çox böyük faydadır.

Dövlət həmişə mətbuatın yaşaması, inkişafı üçün əlindən gələn hər şeyi edir. Bu fəaliyyət növünün ƏDV-dən azad edilməsi bu istiqamətdə növbəti addımdır. Bu qərarın qəzet jurnalların xərclərinin azalması ilə bağlı faydası olacaq və nəticədə onlar xeyli əlavə xərcdən azad olacaqlar. Ola bilsin ki, qəzet və jurnalların qiymətlərinin azalması da mümkün olsun ki, bu da oxucuların onları daha rahat ala bilməsinə gətirib çıxara bilər.

Hazırda Azərbaycanda çap mediasının vəziyyəti yumşaq desək, qibtəolunası deyil. Onlayn medianın sürətli inkişafı və öz ziyarətçi kontingentini məhz qəzet oxucuları hesabına genişləndirməsi qəzetlərin satışına, bununla da maddi vəziyyətlərinə təsirsiz ötüşməyib. Həmçinin reklam bazarının olmaması da qəzetlərin öz maddi dayanıqlıqlarını təmin etməyə imkan vermir. O baxımdan, qəzetlərin çap, maaş-qonorar və digər xərclərini nəzərə aldıqda, onların maddi vəziyyətinin ağırlığını təsəvvür etmək çətin deyil. MEDİA-nın qəzetlərə, jurnallara maddi dəstəyi olmasa, dövri nəşrlərin bir çoxunun mövcudluğu sual altına düşərdi.

Belə bir şəraitdə bu məhsulların ƏDV-dən azad edilməsi qəzetlərə öz xərclərinin bir hissəsinə qənaət etmək imkanı yaradacaq. Ona görə də, atılmış bu addım müsbət qiymətləndirilməlidir.

Azərbaycanda dövlətin KİV-lərə dəstəyi ilə bağlı əvvəllər də xeyli addımlar atılıb. Qəzetlərin nəşriyyatlara borcları silinib, qəzet kağızı udxal rüsumundan azad edilib, mətbautın maddi-trxniki bazasının gücləndirilməsi üçün çoxsaylı layihələr həyata keçirilib, qrantlar verilib.

Hazırda da bu istiqamətdə işlər davam edir. MEDİA medianın, xüsusən də çap mediasının inkişafı üçün mümkün olan hər şeyi edir. Bunun nəticəsidir ki, indi qəzetlər rngli və çox keyfiyyətli kağızda çap olunurlar, onların məzmun keyfiyyətində də xeyli müsbət dəyişikliklər olub.

Beləliklə, dövlət medianın inkişafı üçün əlindən gələni edir. Bir tərəfdən qəzetlərə yardımlar edilir, digər tərəfdən isə onların xərclərinin azaldıması üçün addımlar atılır. Bu isə öz növbəsində ölkədə azad medianın formalaşmasını və internetin sürətli inkişafı fonunda yazılı mətbu orqanların bu kritik dövrdən itkisiz ötüşməsini təmin edir.

Dövlət bilir ki, hər bir sağlam cəmiyyətdə oxuma mədəniyyətinin inkişafı vacibdir. İnsanlar kitab,q zeet, jurnal oxumalıdır və bunun üçün həmin məhsulların qiyməti hamı üçün əlçatan olmalıdır. Məhz bu səbəbdən buna mane olan səbəblər aradan qaldırılır.

Qısa müddət sonra KİV-lərin, xüsusən də çap mətbuatının problemləri arxada qalacaq, onlar dövlət dəstəyi olmadan özlərini maliyyələşdirə və inkişaf edə biləcəklər. Lakin o vaxta kimi dövlət öz qayğısını göstərir. Bu səbəbdən bu sahədə dövlət siyasəti çox təqdirəlayiqdir.

***Elçin Bayramlı***

# Baydenin sınıq "demokratiya" arabası



***Amerika Birləşmiş Ştatları prezidenti Co Baydenin şəxsi təşəbbüsü ilə dekabrın 9-da video-çat formatında keçirilməsi nəzərdə tutulan "Demokratiya sammiti" dünyada iki yox, beştirəlik yaradıb. Ağ Evin indiki sahibinin ağlının məhsulu olan bu siyahıda o qədər naşılıq, subyektivlik, ikiüzlülük, qərəz, dini-irqi ayrıseçkilik, ikili standart, ksenofobiya, qütbləşmə, soyuq müharibədən qalan şırımlar var ki, Baydenin bu məngənədən necə çıxacağını söyləmək bir az çətin görünür.***



Axı bu işin sabahı da var, nə qədər güclü olsan da, nə qədər superdövlət olsan da, "öz gözündə tiri görməyib, başqasının gözündə tir axtarsan da", kiçik dövlətləri qapazaltı etsən də, dövlətləri "titullandırıb" onların zəif damarlarını ələ keçirsən də ələhəzrət həqiqəti inkar edə bilməzsən. Ağ Evin nəzərində, ölçü cihaznda, tərəzisində demokratiyanın bütün hərfləri təhqir olunub. Heç bir mənbə Baydenin seçiminə vəsilə olmayıb, Co müəllim heç bir mənbədən istifadə etməyib. Yalnız bir ölçü vahidindən savayı

Əslində bəzi dairələr var ki, dekabrın 9-da keçiriləcək sammiti sanki ölüm-dirim savaşı kimi, qiyamət günü kimi təqdim edir. Sanki bu siyahıdan kənarda qalanlar üçün hər şey bitib, tədbirə qatılanlar isə bundan sonar cənnət-məkan olacaqlar. Bəs Co-nun siyahısında olanların bundan sonrakı taleyi necə olacaq, bunu düşünən varmı? Əslində, tarixən qərəzli, obyektivlikdən kənar tutulan bütün işlərin ömrü çox qısa olur. Hər şey unudulur, vədlər qulaqardına vurulur, ümidlər puça çıxır.

Baydenin siyahısı, deyilənə görə, ölkələrin demokratiya dərəcəsi nəzərə alınmaqla tərtib edilib. Yəni burada bir nəfərin, bir qrupun fikirləri nəzərə alınmayıb, bütün dünyanın qəbul etdiyi meyarlar əsas götürülüb, ən azından beynəlxalq təşkilatların hazırladığı reytinq cədvəllərindən istifadə edilib. Yox, beynəlxalq təşkilatların hazırladığı demokratiya reytinqi ilə Co Baydenin "icad" etdiyi cədvəl arasında xeyli ziddiyyətlər var. Həmin reytinqdə 166-cı yerdə qərarlaşan dövlət sammitə dəvət edilib, amma ilk yüzlükdə olan dövlətlərin adı orada yoxdur. Bütün seçkilərdə norma və prinsiplərin pozulduğu, siyasi rəqiblərinə qarşı güc tətbiq olunmasının adi hala çevrildiyi, prezidentliyə namizədin cismani olaraq məhv edildiyi, parlamentində deputatların, baş nazirin, spikerin güllələbaran edildiyi Ermənistan adlı qondarma dövlət Baydenin gözündə demokratik ölkədir, hər gün terrorun adi hala çevrildiyi, siyasi və dini baxışlarına görə minlərlə insanın öldürüldüyü, milyonlarla sakinin öz doğma yurdunu tərk etdiyi, isti ocağını itirdiyi Nigeriya demokratik dəyərlərə cavab verir, amma Cənubi Qafqazda sabitlik adası sayılan Azərbaycan qeyri-demokratik damğası vurularaq həmin sammitə dəvət edilmir. Bu, əslində Amerikanın ikili standartlarının məhsuludur. Amerika demokratiyaya belə yanaşır. Həmin sammitə İraq və Suriya kimi ölkələr də dəvət alıb. Hansı ki, bu ölkələrdə nəinki demokratiya, heç normal dövlət quruluşu da yoxdur. Amma Türkiyə kimi demokratik ənənələri olan demokratiyanın tam oturuşduğu ölkəni, o cümlədən də bizim ölkəni həmin sammitə dəvət etməyiblər.



Bu yanaşma yanlışdır. Demokratiyanın özünü hörmətdən salmaq deməkdir. Yəni Türkiyədə çoxpartiyalı sistem çoxdan yaranmışdır, seçkilər tam şəffaf şəkildə həyata keçirilir və hakimiyyət seçki yolu ilə dəyişilir. Yəni klassik demoktatik quruluşu olan dövləti bu sammitə dəvət etməmək sırf Türkiyə ilə münasibətlərin normal olmaması idi. Bu, ABŞ prezidenti Co Baydenin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana xoş olmayan münasibətindən irəli gəlir. Eyni münasibəti Azərbaycana da göstərirlər. Bizdə çoxpartiyalı siyasi system mövcuddur. Həmin partiyaların qəzet və saytları fəaliyyət göstərir. Yəni fikirlərini azad və sərbəst şəkildə bildirmək üçün dövlət onlar üçün lazım olan imkanları yaradıb. Onları rəsmi surətdə qeydiyyata alıb, dövlətin mülkiyyətində olan binalarda işləmək üçün ofislər verilib. Eyni zamanda çoxpartiyalı siyasi sistemin iştirakı üçün seçkilərdə iştirak hüququ yaradılıb, hansı ki, onlar prezident seçkilərində, parlament seçkilərində, bələdiyyə seçkilərində iştirak edirlər. Demokrativ dövlət quruculuğunu qarşısına məqsəd kimi qoyub və bu yolda xeyli yol qət edib. Amerika normal demokratiyaya gəlib çatmaq üçün 200 ildən çox vaxt sərf edib. Buradan belə nəticə çıxarmaq olar ki, Baydenin demokratiya tərəzisi sınıb, işləmir.



Bəs demokratiya nədir? Demokratiya, yunanca. demos - xalq və kratos - hakimiyyət, yəni xalq hakimiyyəti deməkdir. Cəmiyyətin siyasi təşkili forması, xalqın hakimiyyət mənbəyi kimi tanınmasına, dövlət işlərinin həllində iştirak etmək hüququ olmasına və vətəndaşlara geniş hüquq və azadlıqlar verilməsinə əsaslanır. Demokratiya azadlıqlar arasında vətəndaşların nümayəndəli dövlət orqanlarına seçmə və seçilməyi, söz, mətbuat, yığıncaq, mitinq və nümayişlər azadlıqları, vətəndaşların hüquq bərabərliyi, şəxsiyyət və mənzil toxunulmazlığıdır. Bu, oxuduğumuz sətirlərdə bizə yad olan bircə söz varmı? Yox. Seçkili orqanlara bütün vətəndaşlarımızın seçmək və seçilmək hüququ var və tanınır. Söz və mətbuat azadlığının olmadığını kimsə deyə bilməz, çünki ölkədə dərc olunan çıxa qəzet və jurnalların sayı onlarladır, saytları sayı isə yüzlərlə. Mitinqlərin keçirilməsində heç bir məhdudiyyət yoxdur, hüquq bərabərliyi və şəxsiyyətin toxunulmazlığı isə əksər dövlətlərdən daha çox qorunur və deməli demokratik norma və prinsiplərə cavab verir.

Demokratiya dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, ictimai vəziyyətindən, mülki vəziyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabərliyini nəzərdə tutur. Amma ABŞ kimi kapitalizmin ən yüksək dəyərlərini mənimsəmiş ölkələrdə sosiallaşma, insanlar arasında normal münasibətlər, dərin təbəqələşmə demək olar ki, sıradan çıxarılıb. Yalnız güclülər yaşaya bilir. SEçən və seçilənlər yalnız ən üst qatda olanlar arasında aparılır. ABŞ seçki sisteminə fikir versəniz bunu açıq şəkildə görə bilərsiniz. Heç təsadüfi deyil ki, Bil Klinton president olduğu dönəmdə çalışırdı ki, mövcud qaydaları dəyişsin. Onun fikrincə, seçkilərdə iştirak edən hər bir vətəndaşın savadlılığı müəyyən testlər vasitəsilə yoxlanılmalıdır. ABŞ strateji maraqları üçün bütün vasitələri məqbul sayıb, dünya siyasətində öz maraqlarını təmin etmək üçün demokratiyadan sui-istifadə edir. Hətta bu vasitələr beynəlxalq qanunları tapdalamaq hesabına olsa belə, ABŞ bunun həyata keçirilməsindən çəkinmir. Bu strategiya isə ABŞ-ın pul vahidi olan dolları dünya valyutası kimi qoruyub saxlamaqdan ibarətdir.

ABŞ-ın "Demokratiya" sammitini keçirməsi də səbəbsiz deyil. Öncə onu demək lazımdır ki, Trampın zamanında ABŞ demokratik imicini həddindən artıq xərcləmişdi. Co Bayden bu sammiti keçirməklə "demokradiyanın atası" və "beşiyi" olduğunu düşüncələrdə bərpa edə bilsin. Bundan başqa Bayden administrasiyası çalışır ki, "Demokratiya" sammitini keçirməklə dəvət etdiyi ölkələrin üzvü olduğu koalisiya yaratsın və yeni yaradılan bu "demokratiya" blokunu Rusiya və Çinə qarşı qoysun. Çünki Çinin yüksəlişi, Rusiyanın əsasən Ukrayna və Yaxın Şərqdəki mövqeləri müəyyən mənada ABŞ-ın maraqlarına toxunmağa başlayıb. Burada Azərbaycan və Türkiyənin iştirak etməməsinin səbəbi də ABŞ-ın istəklərinin Azərbaycan və Türkiyə tərəfindən qəbul edilməməsidir. Amerika Türkiyə və Azərbaycanı öz yanında görmək istəyir. Türkiyənin S-400-dən imtina etməməsi, Rusiya-Türkiyə yaxınlaşması, hər ikisinin Qafqazda, Suruyada əməkdaşlıq etməsi, digər tərəfdən daxildəki müəyyən siyasi proseslər ABŞ-ın istəkləri ilə uyğun gəlmir.

Demokratiyanın bir üsulunu da vaxtilə Liviyada Qəddafi qurmuşdu - Cəmahiriyyə. Ərəbcə "kütlələrin dövləti" kimi tərcümə edilir. Bu termin Muammər Qəddafinin 1975-ci ildə nəşr olunan "Yaşıl Kitab"ında da qeyd edilib. 1977-ci ildən 2011-ci ilə qədər Liviyada əsl xalq hakimiyyəti quran Qəddafinin başqa günahı nə idi ki, onu bəhanə edib biabırcasına devirdilər. Bayden hökumətinə bir sual, demokratiya istəmirdin, bu da sənə xalq hakimiyyəti - demokratik cəmiyyət, demokratik dövlət. Bəs niyə devirdiniz, çünki sizing tərtib etdiyiniz, ayı xidməti göstərən, banan ölkə deyildi. O "ərəb baharı"nın nə olduğunu, mahiyyətini BMT tribunasından açıq şəkildə demişdi. O Makron Fransasının Afrika qitəsindəki koloniyaları yenidən yaratmaq istəyini faş etmişdi.

Bir sözlə Qərbə demokratiya yox, bu ad altında tərtib olunmuş, gizlədilmiş siyasi oyunlar lazımdır

**V.VƏLİYEV**

# Cəmiyyətdə əlillərə münasibət necədir?

***1992-ci il oktyabrın 14-də Əlillər Onilliyinin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq Günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır. İndi dünya əhalisinin təxminən 10 faizini fiziki cəhətdən qüsurlu insanlar təşkil edir. Əlilliyi olan insanların 20 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır.***



Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş ”Əlillərin hüquqları haqqında” Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyasli tədbirlərin əsası Ümummillli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bəs, cəmiyyət arasında əlillərə münasibət necədir? İnsanların mövqeyini öyrənmək məqsədilə paytaxt sakinləri arasında sorğu keçirdik. Sorğunu sizə təqdim edirik:




**Paytaxt sakini Vüsal Məmmədov:** ”Hər yerdə yaxşı da, pis də var. Mən cəmiyyətdə əlillərə qarşı müsbət davrananların, kömək etməyə çalışanların daha çox olduğunu düşünürəm. Düşünmürəm ki, bizim cəmiyyətdə əlilləri aşağılayan, lağa qoyanlar olsun. Əksinə mənim ətrafdan müşahidəm və yaxınlarımdan gördüyüm qədəri ilə kömək edənlərin sayı çoxdur. Kömək edirik və etməliyik də. Heç cür onların fərqliliklərini onlara bildirməməliyik. Onlar da cəmiyyətin bir üzvüdür. Onların da bizim kimi yaşamaq, həyatın hər bir zövqündən dadmaq hüququ var”.




**Paytaxt sakini Hikmət Kərimov:** ”Mən özüm əlil olmasam da, nitq qüsurluyam (kəkələmə). Bəziləri buna görə lağ edir, bəziləri normal baxır. Bəziləri isə yazıq kimi hesab edir. Amma ilk növbədə cəmiyyət yox, dövlət əlillərə yanaşmalıdır. Məsələn yollarda və s. əlillər üçün keçidlər qoyulubsa da, bəzi yerlərdə artıq vəziyyət stoplanır. Yəni eniş-qalxış məhdudlaşır. Məsələn hər əlilin qolunda gücü yoxdur ki, ekskolatora minibdüşə bilsin. Bu bəlkə də qəribə gələcək amma məncə, onlar üçün lift formasında nələrsə olsun”.




**Paytaxt sakini Fərid Cəfərov:** ”Cəmiyyətdən tutmuş, dövlət orqanlarına qədər hamı fiziki qüsurlu insanların yanında olmaq, onlara kömək etmək istəyir. Biz çalışırıq ki, onların problemi olmasın. Bunun üçün də cəmiyyət olaraq əlimizdən gələni edirik”.




**Paytaxt sakini Tofiq Mehdiyev:** ”Əlillərin haqları, hüquqları ölkəmiz və cəmiyyətimiz tərəfindən qorunur. Şəxsən mən belə şeyllərdə həssasam. Əgər kimsə yanımda onları aşağılayacaq, qürurunu incidəcək bir şey etməyə çalışsa, qətiyyən, buna icazə verməz və ona qarşı əlili müdafiə edərəm. Mənim yanımda heç kim əlillə qarşı hörmətsizlik edə bilməz. Düşünürəm ki, cəmiyyətimizin böyük əksəriyyəti də mənim kimi düşünür”.




**Paytaxt sakini Novruz Qurbanov:** ”Mən rayonda yaşayıram və düşünürəm ki, rayonda əlillərə qarşı münasibət şəhərdəki ilə müqayisədə daha yaxşıdır. Fərq etməz bu əlil müharibə əlili olsun və ya hansısa digər bir səbəbdən əlil olmuş olsun”.




**Paytaxt sakini Zəminə Hümbətzadə:** ”Allah hər kəsi bir cür yaradır. Əlilliyi olan şəxsə qarşı lağlağı münasibət bəsləmək doğru deyil. Uşaqlara xüsusilə bunu öyrətmək lazımdır. Məktəblərdə nitqində qüsuru olan uşaqlara lağ edirlər, onları incidirlər. Mən oğlumu bağçaya qoyanda demişdim ki, əlillərə qarşı lağlağı davranış etmək olmaz. Əksinə bu tip insanlara xüsusi diqqət göstərmək lazımdır”.

**Paytaxt sakini Aydın Kərimov:** ”Əlilliyi olan insanlara dövlət öz qayğısını artırmalıdır.




Cəmiyyət mənim bu fikrimi təsdiqləyər. İnsanlarımız belə əlillərə qarşı diqqətcil, hörmətcil yanaşır”.

**Paytaxt sakini Şəlalə Rzayeva:** ”Əlillərə qarşı cəmiyyətdə lağlağı münasibət bəsləndiyini düşünmürəm. Kim də lağ edirsə anlamalıdır ki, sabah kimin başına nə gələcək bilmək olmaz. Eyni zamanda Vətən müharibəsində iştirak edən və qazi olub əlil olan igidlərimiz var. Onlardan biri də mənim bacım oğludur. Başa düşə bilirəm ki, onların bu vəziyyəti onların anaları üçün ağırdır. Əlil olmaq bahasına, ölmək bahasına Vətən üçün mübarizə aparan bütün igidlərimizə minnətdarlığımı bildiririk”.




SORĞU

***Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bildirib ki, hərbçilərinin sosial, məişət, xidmət sahələri ilə bağlı şəraitin yaxşılaşdırılması hökumətin diqqət mərkəzindədir: "Ordu quruculuğunun daha da gücləndirilməsi Ali Baş Komandan tərəfindən qarşımıza qoyulan ən vacib məsələlərdən biridir". Bəli, bu, həmrəylikdən - "Dəmir yumruğ"a gedən, güclənən, möhkəmlənən Qalib Ordudur. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olub.***

# Prezident hökumətə Ordu quruculuğunun gücləndirilməsini tapşırdı!







*İlham Əliyev: "Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq, biz daha da möhkəm orduya malik olacağıq"*

Təhlil

Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ali Baş Komandan, Prezident İlham Əliyev də çıxışlarının birində demişdi ki, müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Hadisələrin sonrakı inkişafının sübut etdi ki, 1993-cü ilin 15 iyununda Ulu öndər Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizdə bütün sahələr kimi ordu quruculuğu prosesi də sürətlə inkişaf etməyə başladı. Və bu uğurlu siyasətin layiqli davamçısı son 18 ildə Prezident İlham Əliyevin diplomatik və ”Dəmir siyasəti” nəticəsində 44 gündə mümkünsüzü mümkün edən Güclü Azərbaycan Ordusu 30 illik torpaq həsrətinə son qoyaraq qələbə Zəfərinə nail oldu. Bu Zəfər qələbəsi Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı. Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi.



### ”BİZİM ƏSGƏRLƏRİMİZ XİLASKAR ƏSGƏRLƏRDİR, ERMƏNİ ƏSGƏRLƏRİ İŞĞALÇI ƏSGƏRLƏRDİR”

Dövlət başçımızın dediyi kimi, çünki bizim əsgərlərimiz öz doğma torpaqlarında vuruşur: ”Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür”. Dövlətimizin başçısı onu da bildirib ki, biz öz torpağımızda vuruşuruq, bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Bəli, Azərbaycan Prezidenti ölkənin ərazi bütövlüyünün bərpa olunacağı və bunun istənilən yolla təmin ediləcəyinə dair vədinin 44 günlük Vətən müharibəsində yerinə yetirilməsi bir daha bu sözləri təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daxili siyasətdə Azərbaycanın dinamik iqtisadi inkişafına, xarici siyasəti torpaqlarımızın işğaldan azad edilməsinə və dünya dövlətlərinin ədalətli dəstəkləməsinə, işğalçının işğalçı kimi tanınmasına istiqamətləndi. Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin əyani şəkildə sübutudur. Müharibənin elə ilk günlərindən Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi.

### Prezident İlham Əliyev: “Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi”

Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq: ”Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir”. Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da ”ağ bayraq” qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan ”ağ bayraq” qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

### PREZİDENT İLHAM ƏLİYEVİN SƏRƏNCAMLARI İLƏ 76 MİN 349 HƏRBİ QULLUQÇU MÜXTƏLİF ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLİB

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar.















Dövlətimizin başçısının iyunun 24-də imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olunmasına görə", 3522 nəfər "Ağdamın azad olunmasına görə", 4225 nəfər "Kəlbəcərin azad olunmasına görə", 2643 nəfər "Laçının azad olunmasına görə", 10647 nəfər "Suqovuşanın azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif ediliblər. Azərbaycan Prezidentin digər Sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbiçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunublar. Ümumilikdə təltif olunanların sayı 76 min 349 nəfərdir.

## MÜDRİK LİDER, BÖYÜK STRATEQ, QALİB SƏRKƏRDƏ

Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 18 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasının əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bu gün dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı.

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Müstəqillik tarixinin ən böyük büdcəsi - 2022-ci il Zəfər büdcəsi

44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il üçün hazırlanan iqtisadi konstitusiyasını zəfər büdcəsi də adlandıra bilərik. Çünki bu, 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 18 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

## Müdafiə xərcləri 5 milyard manata yaxın yüksəlir

Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq. Belə ki, gələn ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub. Gələn ilin büdcəsinin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır. Düşmənin vəhşicəsinə talan etdiyi kənd, qəsəbə və şəhərlərin yenidən qurulması və tarixi simalarının qaytarılması, ərazilərin minalardan təmizlənməsi, zəruri yolnəqliyyat, elektrik, rabitə, su, qaz və digər kommunal infrastrukturların, həmçinin sosial-mədəni obyektlərin tikintisi, mədəni-tarixi abidələrin bərpası istiqamətində başlanılmış böyük həcmli işlər sürətlə davam etdirilməkdədir. Növbəti ildə də işğaldan azad olunmuş ərazilərin bərpası məqsədi üçün 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulur.

Bütün hallarda aparılan müqayisələr o qənaətə gəlməyə əsas verir ki, Vətən savaşında Azərbaycan qarşısında diz çökən Ermənistan bu gün istənilən sahələrdə Azərbaycanla ayaqlaşmaq gücündə deyil və heç bir zaman da olmayacaq.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bir sözlə, bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Çünki güclü ordu isə güclü dövlət deməkdir.

Və bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu ən peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə ən qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazılacaq. Və növbəti mərhələdə cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək, güclü dövlətin güclü ordusu çox tezliklə, Qarabağın işğal olunmuş ərazilərimizi də geriyə qaytaracaq! Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

**RƏFİQƏ KAMALQIZI**

***Smartfonların, planşetlərin, fərdi kompüterlərin və oyun konsollarının geniş yayılması özü ilə bərabər yeni problemləri də gətirib. Çox kiçik yaşlardan başlayaraq bütün yaş qruplarının oynadığı rəqəmsal oyunların gətirdiyi zərərlər bəşəriyyətin ortaq problemlərindən birinə çevrilib. Uzun müddətli kompüter istifadəsi piylənmə, görmə və skelet sistemi pozğunluqları kimi fizioloji problemlərə səbəb olur və eyni zamanda, xüsusilə, döyüş tipli kompüter oyunları uşaq və gənclərdə aqressiv davranışların ortaya çıxmasına, internet asılılığı, antisosyal şəxsiyyət kimi müxtəlif problemlərə səbəb olur. Təsiri araşdırmalarla nümayiş etdirilir.***




# Döyüş tipli oyunların uşaqların gələcəyinə təsiri necədir?

ARAŞDIRMA

Dünya miqyasında 1 milyard dollarlıq bazara çevrilən oyun sənayesi istifadəçilərinə təqdim etdiyi virtual reallıq təcrübəsi ilə az qala rəqəmsal kölələr əldə edir. Oyunlar dərhal edilməsi lazım olan bir fenomenə çevrilib. Digər tərəfdən dünyanın bir çox ölkələrində, o cümlədən ölkəmizdə uşaq və gənclərə psixoloji və fiziki zərər vurmaqdan tutmuş, prosesdə aparıcı rol oynayan "Mavi balina", "Momo" və "Mavi körpə" kimi qaranlıq oyunların təhlükələri intiharlar, gündəmdə qalmağa davam edir. Bu virtual mühitlər əsasən ssenari vasitəsilə yaradılır və oynanılır. Bu ssenarilərdə baş rolu oynayan aktyor istədiyi istiqamətdə dünya yaratmağa can atır və onu idarə edir. Oyun aludəçiliyinin əsas səbəblərindən biri də insanın özünü xarici dünyadakı problemlərdən və xarici aləmdəki insanlardan təcrid etmək istəməsi olduğundan, içində olduğu bu virtual mühit onu xoşbəxt edir. Buna görə də söz sahibi olduğu və çox vaxt istədiyini edə bildiyi bu dünyada yaşamağı daha cəlbedici görür.



Uzun müddət rəqəmsal oyunlar oynayan və bu vəziyyətə aludəçilik inkişaf etdirən fərdlərin oyunlarda yaratdıqları xarakterlərlə özlərini həddindən artıq eyniləşdirdikləri görülür. O qədər ki, bu şəxslər fiziki olaraq oyun personajlarına bənzəməyə çalışırlar. Eynilə, xüsusilə uşaqlar, oyunda öz avatarlarının gücünə və hüquqlarına sahib olduqlarına inanaraq, öz fiziki məhdudiyyətlərini zorlayırlar. Bu vəziyyət oyunçuların reallıq qavrayışlarını itirməsinə, həm özlərinə, həm də ətraflarına psixoloji və fiziki zərər vurmasına səbəb olur. Oyundakı şiddətli davranışlarından sonra mükafatlandırılan və həzz alan fərdlər, real dünyada eyni davranışları sərgiləyərək oxşar həzzlər yaşayacaqlarına inanmağa başladılar. Bu vəziyyətin başqa bir səbəbi də rəqəmsal döyüş oyunları oynayan şəxslərin uzun müddət şiddətli hadisələrə məruz qalmaları və oyunu qarşı tərəfə zərər vermək və öldürmək məqsədi ilə oynadıqları üçün real həyatda qarşılaşdıqları şiddət hadisələrinə vecsizləşməyə başlayırlar. Müharibə oyunlarında gördükləri ekstremal və qanlı mühitlər zorakılığı fərdlər üçün adi hala gətirir və şüuraltı olaraq şiddəti görməməzliyə vurur. Bundan əlavə, rəqəmsal döyüş oyunları uşaqları və gəncləri zorakılığa sövq edir və bu mövzuda onları təşviq edir. Düşmən hisslərini artıran, zorakılığı məqbul və hətta mükafatlandıran, nəhayət, insanların reallıq haqqında təsəvvürlərini demək olar ki, tamamilə dəyişdirən rəqəmsal oyunlar nəticəsində bu şəkildə törədilən bir çox cinayətlər var.

Bu oyunların istehsal mərhələsi başa çatdıqda, "PEGI" və "ESRB" adlı iki universal yaş məhdudiyyəti olan universal meyarlara tabedirlər. Yuxarıda qeyd olunan hərəkətlərin baş verdiyi oyunlar yaş həddinə riayət edilmədikdə və daha kiçik yaşda olan şəxslər tərəfindən oynandıqda, bu hərəkətlər oyuna əyləncəli şəkildə daxil edildiyi üçün bu hərəkətlər uşaqların gündəlik həyatında zərərsiz hərəkətləri kimi qəbul edilə bilər. Oyun istiqaməti ilə zehnində şiddəti normallaşdıran uşaq onu xarici aləmdə tətbiq etməkdə heç bir zərər görməyə bilər.

Oyunlarda istifadə olunan hər cür təsvirlər, formalar, rənglər və ya dizayn edilmiş personajların görünüşü və geyim kimi bütün amillər müəyyən məqsədlərə xidmət edir. Oyunçuların qavrayışına və psixologiyasına yönəlmiş təsirləri oyatmağa çalışır. Oyun istehsalçıları və dizaynerləri, xüsusilə bu komponentləri nəzərə alaraq, oyunçuların diqqətini cəlb etdikdən sonra oyunda daha çox iştirak etmələrini və oyunda daha uzun müddət keçirmələrini təmin etməyi hədəfləyirlər. Eyni zamanda, oyundakı oyunçularda fərqli emosiyalar oyatmağı hədəfləyirlər. Məsələn, mavi rəngdən istifadə edərək oyunçuya güvən vermək, qırmızıdan istifadə edərək oyunçunun qəzəb, şöhrətpərəstlik kimi duyğuları yaşatmaq, yaşıl rəngdən istifadə edərək oyunçunu şən etmək üçün üsullardan istifadə edilir. Bundan əlavə, oyunlarda istifadə olunan təsvirlər və formalar oyunçuda maraq, həyəcan, xoşbəxtlik kimi müxtəlif duyğular oyatmaqla bir növ beynin həzz mərkəzinə çatır. Əslində istifadə olunan hər forma, təsvir və rəng bir növ fərdlərin oyuna aludə olmasına səbəb olur və oyun qurucularının yeganə idarəetmə mərkəzinə çevrilməsinə şərait yaradır.



Bu vəziyyətin ən əhəmiyyətli səbəblərindən biri texnologiyanın inkişafı və hər yaşdan fərdlər tərəfindən bu tətbiqlərə ciddi tələbatdır. Oyun istehsalçılarının, proqram təminatçılarının və onlayn oyunlar təklif edən böyük şirkətlərin bu biznesdən ciddi pul qazanması onları daim yeni oyunlar hazırlayıb bazara təqdim etməyə sövq edir. Rəqəmsal oyunlar ciddi bir sənaye yaradıb və bu sənayedə rəqabət artmağa davam edir. Yaşımızın rəqəmsallığa getdikcə daha çox oriyentasiya gətirməsi bu oyunların istifadəçilərinin sayının gündən-günə artmasına səbəb olur. Psixologiyada mavi rəngin tənhalığı, kədəri, depressiyanı, müdrikliyi, inamı və sədaqəti simvolizə etdiyi məlumdur. Çox fərqli mənalar daşıya bilən bu rəngin oyunlarda istifadəsi yenə oyun qurucuları tərəfindən, ilk növbədə, fərdlərdə güvən hissi yaratmağa yönəlib. Eyni zamanda, sədaqət hissi yaradaraq, oyunun oyunçular üçün yaxşı və təhlükəsiz bir sahə kimi hiss etdirilməsi və sədaqət qazanaraq oyunçunun iştirakının artırılması hədəflənə bilər. Nəhayət, mavi rəngin yaratdığı tənhalıq hissi və depressiv hisslər oyunçunun ictimai marağını azalda, real həyatda vaxt keçirməkdən uzaqlaşaraq bütün vaxtını rəqəmsal oyunlarda keçirə bilər.



Rəqəmsal oyun asılılığı və kiber zorakılıq həddindən artıq oyun istifadəsi nəticəsində yaranan etik narahatlıqlar kimi ifadə edilir. Elmi orqanlar tərəfindən tədqiq edilir ki, hər iki vəziyyət insanların narsistik instinktlərini aktivləşdirir, digər insanları idarə etmək və manipulyasiya etmək impulslarını işə salır. İkisi arasında dəqiq bir əlaqə olmasa da (kiber zorakılıq təkcə oyunlarda deyil, e-poçt, mesajlaşma, söhbət otaqları və s. kimi istənilən elektron mühitdə də edilə bilər), bu iki amilin ortaq olduğunu söyləmək olar.

Psixoloq Fərqanə Mehmanqızı: "Əlbəttə ki, oyunların insan psixologiyasında rolu çox böyükdür. Çünki orada baş verənlər insan psixologiyasında müəyyən bir yer tutur. Oyunlar, qan, qatil olmaq, döyüşmək və s. kimi oyunlar insan psixologiyasında böyük rol oynayır. Uşaqlarda qəddarlıq, insan həyatına qarşı həssas olmamaq, empati bacarığının aşağı düşməsi, aqressiya, somatik depressiyanın əlamətləri, ətraf mühitdən qopma, assosiallıq və özlərini ancaq sosial şəbəkədə təmin etmə kimi problemlərə gətirib çıxarır. Ona görə də çalışmaq lazımdır ki, oyunlarına nəzarət etmək, hansı oyunları oynadıqlarına baxmaq, qəddarlıq və s. kimi oyunlardan uzaq tutmağa çalışmaq lazımdır ki, empati bacarıqları aşağı düşməsin. Empati bacarıqları aşağı düşdükdə aqressiyaları, insani hisləri, duyğu və vicdanları aşağı səviyyəyə düşür ki, bu da gələcəkdə həmin uşağı cinayətə sövq edə bilir. Çünki uşaqlar bu oyunlara həmin oyunu yaşayırmış kimi yanaşırlar".

Sosioloq Asif Bayramov: "Biz XXI əsrdə fəqli bir cəmiyyətdə, dövrdə və fərqli bir düzəndə yaşayırıq. Sözsüz ki, bu gün böyüyən nəslin düşüncəsinə, şüuruna mənfi təsir göstərən kifayət qədər faktorlar var. Bunlardan biri də internet resurslarında arzuolunmaz müəyyən süjetlərin, disklərin, saytların olmasıdır. Döyüş tipli oyunlara gəldikdə isə döyüş tipli oyunlar fərqlidir. Təbii ki, döyüş tipli oyunlar böyüyən nəsildə istər-istəməz mərhəmət hissini məhdudlaşdırır. Çünki böyüyən nəsil daha çox hansı sahəyə meyil edirsə, o sahənin möhrünü öz xarakterinə vurur. Buna elmdə stereotip, yəni davranış modeli deyilir. Əgər biz uşaqlığımızdan daha çox amansızlıq təqdim edən oyunların içində oluruqsa, böyüdükdə istər-istəməz bizdə cinayətkarlığa meyl daha güclü olur. Bunu idarə edən bizim ağlımız, rasional sahə yox, şüuraltımızda oturuşmuş həmin davranış modelləri olur. Çünki uşaqların körpəlikdən o tipli oyunlar oynaması onlarda sərtliyi, kobudluğu, rəhmsizliyi və cinayətə meyilliliyi artırır və bunu onların özləri hiss etmirlər. Ümumiyyətlə, hər kəs olduğu mühitdə özünün xəbəri olmadan müəyyən davranış modellərini, düşüncə tərzini əks etdirir. Ancaq bu şüuraltı proses olduğuna görə bu stereotiplər formasında bizim şüuraltımıza oturuşur. Həmin oyunların da mənfi təsiri daha çox məhz bundan ibarətdir. Çünki böyüyən nəslin şüurunun altına təhlükəli və zərərli stereotiplər oturulur və böyüyəndə həmin nəsildə mərhəmət hissindən daha çox rəhimsizlik, amansızlıq və həm də cinayətə meyillər daha çox olur".

Psixoloq Vüsalə Əmiraslanova: "Döyüş tipli oyunlar təbii ki, uşaqların psixologiyasına mənfi təsir göstərir. Bu oyunlar uşaqlarda aqressiyanı artırır, rəqabət hissini qeyr-sağlam formalaşdırır. Həmin uşaqlar istədikləri bir şeyi vuraraq, dağıdaraq əldə etməyi xoşlayırlar. Bəzən bu cür döyüş tipli oyunlar uşaqlarda gecə kabusları yaradır. Onlar yuxularında çox böyük problemlər yaşaya bilirlər. Həmçinin, döyüş tipli oyunlar uşaqlarda bir-biri ilə sosiallaşmanı zəiflədir. Bu oyunlar uşaqlarda ancaq kobud şəkildə davranışı artırır. Uşaqlarda assosiallıq yaradır, həmçinin də ünsiyyət problemini dərinləşdirir. Döyüş tipli oyunlar yaş psixologiyasına görə bölünməlidir. Aşağı yaşda olan uşaqlara ümumiyyətlə, döyüş tipli oyunlar oynamaq olmaz. 12 yaşdan yuxarı oğlanlarda hardasa müəyyən məhdudiyyətlər şəklində və çox ağır oyunlar yox, özlərinin yaş və psixologiyalarına uyğun oyunlar seçilə bilər. Lakin böyüklər təbii ki, çox vaxt bu oyuna maraq üçün qoşulurlar, bəziləri isə bu oyunlara tanışlıq məqsədi ilə qoşula bilirlər. Ancaq çalışmaq lazımdır ki, 12 yaşına qədər uşaqların döyüş tipli oyunları oynamasına icazə verilməsin".

***Rüqəyya Orucova***

***Keçirilən bütün görüşlərdə, bütün platformalarda Azərbaycanın qalib ölkə olmasının fonunda beynəlxalq hüququn norma və prinsiplərini əsas tutduğu, ədalətin bərpası, sabitlik, stabillik, sülhün təmin olunması istiqamətində ölkə başçısının, cənab Prezident İlham Əliyevin ortaya qoyduğu siyasi iradə, eləcə də qazanılan uğurlar göz önündədir. Bütün dünya şahiddir ki, Azərbaycan tərəfi hər zaman olduğu kimi humanizm prinsiplərini, hüquqi normaları, ədalətliliyi əldə rəhbər tutaraq danışıqlarda iştirak edir, sülh şəraitində əməkdaşlığı, iqtisadi yüksəlişə, inkişafa rəvac verən əlaqələri, münasibətləri dəstəkləyir və məhz bu strategiya da hərb meydanında qazanılan qələbənin ardınca diplomatik müstəvidə də qələbələrimizi, uğurlarımızı davamlı edir.***





# Soçi və Aşqabad görüşləri uğurlarla, qələbələrlə yadda qaldı

Təhlil

Rusiyanın təşəbbüsü və moderatorluğu ilə Soçi şəhərində keçirilən üçtərəfli görüş, eləcə də, bunun ardınca Aşqabadda keçirilən Zirvə görüşü ölkəmizin uğurları ilə yadda qaldı. Azərbaycan artıq bütün görüşlərdə qalib ölkə olaraq iştirak edir və müəyyənləşdirdiyi strateji hədəflərə doğru irəliləməkdə olduğu heç də diqqətdən yayınan deyil. Artıq bütün platformalarda Azərbaycanın haqlı olduğu qəbul olunmaqdadır və istər beynəlxaq təşkilatlar, istərsə də ayrı-ayrı dövlətlər ölkəmizin ədalətli mövqeyini qəbul etmək məcburiyyətində olduqlarını yaxşı başa düşürlər. Hətta, bir zamanlar Ermənistanın tərəfini tutan, elə indi də həmin ölkənin tərəfini tutmaqda maraqlı olanlar belə ciddi faktlar qarşısında qalıblar və bir-birinin ardınca Azərbaycanın qələbələrini müşahidə edir, bununla barışmaqdan başqa çarə görmürlər, çünki ölkəmizin qüdrətini, tutduğu haqq yolunu inkar etmək mümkünsüzdür, hansıki bunu, istəsə də, istəməsə də hər kəs başa düşür.

On illiklər boyu müharibə şəraitində yaşamış Azərbaycan və Ermənistan arasında normal münasibətlərin yaradılması baxımından Soçi görüşü, cənab İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 26 noyabr tarixində keçirilən görüş möhkəm hüquqi baza rolunu oynadı desək yanılmarıq. Doğrudur, 44 günlük Vətən müharibəsi başa çatandan sonra ötən il 10 noyabr tarixində və bu ilin əvvəlində 11 yanvar tarixində də üçtərəfli görüş baş tutmuşdu, amma etiraf etmək lazımdır ki, Soçi görüşü iki ölkə, Azərbaycan və Ermənistan arasındakı bundan sonrakı münasibətlərə daha da aydınlıq gətirdi. Həm də bu görüşdə Ermənistana bir daha xatırladıldı ki, imzalanmış bəyanatın şərtlərinə əməl edilməlidir. Bir sözlə, Ermənistan tərəfə Azərbaycanın haqlı mövqeyi bir daha xatırladıldı və erməni baş nazirə üzərinə götürdüyü öhdəlikləri icra etməli olduğu bir daha bildirildi, özü də israrla.

Məsələ burasındadır ki, Ermənistan tərəfinin bu zamana qədər, hələ də məsələni uzatmaqda maraqlı olduğu, bəyanatdan irəli gələn tələbləri icra etməkdə ən azından tələsmədiyi, imkan olduqca bundan boyun qaçırmağa çalışdığı hiss olunur və bunu Rusiya tərəfi də, şəxsən bu ölkənin prezidenti Putin də görür və ermənilərin tələb kimi qarşılarına qoyulan məsələrdən yayınmaq meyillərini çox yaxşı başa düşür. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, Soçi görüşündə Bəyanatda qeyd olunan məsələlərin həlli istiqamətində addımlar atmalı olduğu barədə Ermənistana ciddi şəkildə xəbərdarlıq edildi. ”Dəhlizin açılmasında maraqlı olan tərəflərdən biri də Rusiyadır”, deməklə Rusiya prezidenti Ermənistana ciddi bir mesaj verdi və bunun da arxasında bir çox məqamlar var. Bilirik ki, bu zamana qədər ermənilər bütün problemlərinin həllindən tutmuş, ən xırda məsələlərinə qədər ancaq ruslardan, Rusiyadan kömək, dəstək görüblər və bir növ öyrəncəli şəkildə buna vərdiş etdikləri üçün ümidləri də tükənməmişdi ki, yenə də elə dəstək alacaqlarını zənn edirdilər, amma bunun əksini gördülər. Gördülər ki, bölgədə Azərbaycanın yaratdığı reallıqlarla hətta onların böyük qardaş hesab edib, ətəklərindən tutduqları, kömək gözlədikləri, yardım dilədikləri Rusiya belə razılaşıb, barışıb və hesablaşır da. Deməli, ermənilərin bundan sonra məsələlərdən yayınmaq, yaxud bu məsələlərin həllini uzatmaq üçün qaçış yolu olmadığı, bəyanatdan irəli gələn tələblərə əməl etməli olduğu həqiqətləri ortaya çıxır və başda elə erməni baş nazir olmaqla bütün Ermənistan cəmiyyəti buna tamamilə əmin oldu. Bu vaxta qədər ən azından düşüncələrində belə razılaşmayan, buna qarşı çıxanlar sanki tərksilah olundu və yerləri göstərildi. Üçtərəfli görüşün ardınca keçirilən mətbuat konfransında isə Putin iqtisadi əlaqələrin bərpasından danışarkən ilk olaraq nəqliyyat dəhlizlərinin açılması məsələsini diqqətə çatdırdı ki, bu da öz növbəsində Zəngəzur dəhlizinin açılmasının vacibliyi barədə düşündüyünü təsdiqləyir və sözsüz ki, burada delimitasiya və demarkasiya məsələlərinin də vacibliyi öz əksini tapır.

Soçi görüşü Azərbaycan üçün konkret olaraq çox uğurlu oldu deməkdə hər kəs haqlıdır. Əvvəla ona görə ki, görüşdə diktə edən ölkə kimi iştirak edən Azərbaycanın dövlət başçısının mövqeyi, tələbləri yekun sənəddə öz əksini tapdı. Digər tərəfdən, xüsusi olaraq Zəngəzur dəhlizinin açılması barədə öhdəliyini Ermənistan tərəfi Soçi görüşündə bir daha, növbəti dəfə təsdiqlədi. Ələlxüsus, Rusiyanın bu dəhlizin açılmasında maraqlı olduğu da Ermənistan tərəfinə bəyan edildisə, bu ondan xəbər verir ki, sözügedən dəhlizin açılmasına qarşı ermənilərin istənilən cəhdi zərərsizləşdiriləcək və bu məsələdə Rusiya da Azərbaycanın yanında olacaq. Nəhayət, bir məsələ də ondan ibarətdir ki, ermənilər artıq Rusiyanın Azərbaycanla bağlı mövqeyinin də şahidi oldular və əmin oldular ki, Azərbaycanla münasibətlərə, yaxınlığa, əməkdaşlığa daha çox maraq göstərilir, hətta bu maraq kimlərlə isə müqaisəyə gəlməz dərəcədə yüksəkdir.

Aşqabadda İƏT Zirvə Görüşü də Azərbaycan üçün çox əlamətdar oldu, ölkəmizin üstün olduğunu, qalib olduğunu hər kəsin qəbul etdiyi öz təsdiqini tapdı və bu fonda dövlətimizə dəstək göstərilməsi bizim növbəti diplomatik qələbələrimiz silsiləsindəndir. Aşqabadda keçirilən Zirvə Görüşündə torpaqların işğaldan azad edilməsi münasibəti ilə Azərbaycan xalqının və hökumətinin təbrik edilməsi xüsusi diqqətə layiq bir məqam hesab olunur. Unutmaq lazım deyil ki, Aşqabadda Azərbaycanı qələbə münasibəti ilə təbrik edən, yekun sənədə imza atan dövlətlərdən üçü, daha dəqiq desək, Qırğısıstan, Qazaxıstan və Tacikistan Ermənistanın təmsil olunduğu və İrəvan üçün xüsusi ümid yeri hesab olunan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının, KTMT-nin üzvləridir. Yəni, bu gün Ermənistanın təmsil olunduğu təşkilatın üzv ölkələri belə Azərbaycana dəstək nümayiş etdirirsə, bu böyük qələbədir və bu qələbəni də biz Aşqabad Zirvə Görüşündə əldə etdik.

Aşqabadda keçirilən Zirvə Görüşündə əlbəttə ki, ölkə rəhbərimizin İran prezidenti ilə görüşü dəqqəti xüsusilə cəlb etdi və hesab olunur ki, bu görüş tədbirin kuliminasiya nöqtəsidir. Çünki, istər Vətən müharibəsi dövründə, istərsə də müharibə bitdikdən sonrakı dövrdə İranın Ermənistana yük daşıması, yardım etməsi, hətta İrəvanın mövqeyindən çıxış etməsinin ardınca Aşqabadda cənab Prezidentimizlə görüş zamanı ölkəmizi dost, qardaş ölkə adlandırması məsələlərə birbaşa aydınlıq gətirdi və ermənilər hesablarını getdilər. Anladılar ki, bundan sonra güvəndikləri, köməyinə arxalandıqları İran belə onların yanında deyil və reallıqlarla barışmaqdan başqa çarələri qalmayıb. Yəni, ermənilər İranın belə müqavimətinin qırıldığının şahidi oldular və bu da ondan xəbər verir ki, indi bir erməni belə Azərbaycana qarşı İran faktorunun ola biləcəyi qənaətinə gələ, buna ümid edə bilməz. Bu da öz növbəsində qələbələrimizdən biri və ən önəmlilərindəndir.

Etiraf olunmalıdır ki, bu vaxta qədər olan bütün görüşlər Azərbaycanın diplomatik qələbələri ilə yadda qalıb və bunun şahidi təkcə biz deyilik, amma qarşıda daha həssas və dinamik addımlar atmaq, qələbələrimizi davamlı etmək, ərazi bütövlüyümüzü, süverenliyimizi daha da möhkəmləndirmək, daha sürətli inkişafa nail olmaq, ölkəmizin qüdrətini daha da artıqmaq missiyası durur. Nəzərə almaq lazımdır ki, bu günə qədər əldə etdiyimiz uğurlarımızda, qələbələrimizdə məhz ölkəmizin güclü, qüdrətli olması xüsusi önəm kəsb edib və bu baxımdan qarşımızda daha böyük strateji hədəflər durur, hansıki bu hədəflər də bizim gələcək uğurlarımıza zəmin yaradacaq.

***İnam Hacıyev***

# Bütün zamanların dahisi - HEYDƏR ƏLİYEV



## Böyük siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevin vəfatından 18 il ötür

***Dekabrın 12-si xalqımızın Ümummilli Lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməzdir. İllər keçəcək, müstəqil Azərbaycanın hakimiyyət Olimpinə çox siyasi xadimlər gələcək, amma Ümummilli Lider Heydər Əliyevin göstərdiyi xidmətlərin səviyyəsinə qalxmaq, Onun ucaldığı zirvəyə çatmaq kimsəyə nəsib olmayacaqdır.***



*MEHDİ BALABƏYOV,*
*YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən*

Türkiyənin tanınmış dövlət xadimi Bülent Ecevit siyasət nəhəngi Ulu Öndər Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən, böyük fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Xüsusilə də, Ulu Öndərin 1993-cü il 15 iyunda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı müstəqil Azərbaycan dövlət qurluşu kimi tarixə düşdü. Bu qayıdış yenicə müstəqillik qazanmış Azərbaycanın az qala siyasi xəritədən silinmək ərəfəsində olduğu bir dövrə təsadüf etdi. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərinin böyük bir hissəsini işğal etmiş, iqtisadiyyat iflasa uğramış, silahlı qruplaşmalar arasındakı çəkişmələr vətəndaş müharibəsi həddinə çatmışdı. Xalqın son ümid yeri Heydər Əliyev idi. Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycanı siyasi fırtınaların cəngindən alaraq, onun strateji mövqelərini bərpa etdi, sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə özünün neft strategiyasını işləyib-hazırladı. Ümummilli Liderimiz böyük uzaqgörənliklə dünyanın enerji tələbatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu diplomatiyada ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendi yaxşı duyurdu. Dünyanın söz sahibi olan ölkələrin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı. Ulu Öndər Heydər Əliyev bu sahəni özü qədər inandığı ən yaxın silahdaşı İlham Əliyevə tapşırdı. Bundan sonra danışıqlarda əsas üstünlük "açıq qapılar" və "balanslaşdırılmış siyasət" prinsiplərinə verildi. Bir tərəfdən təmkin və səbri, yüksək intellekti və insani keyfiyyətləri ilə mütənasib olan praqmatizmi, digər tərəfdən böyük müəllimi Heydər Əliyev kimi fenomenin qiymətli tövsiyə və məsləhətləri gənc İlham Əliyevə bu mühüm tapşırığın öhdəsindən layiqincə gəlməyə imkan verdi.

### Ulu Öndər ideyalarının uğurlu davamçısı

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, tarix dahi şəxsiyyətin uzaqgörənliyini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti ilə təsdiqlədi. Nidasını isə elə vurdu ki, bu əsrlərə bərabər oldu.

### Böyük Qələbəmizi təmin edən tarixi hadisə- 2020-ci il 8 noyabr

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sözdə yox, əməldə, mifik yox, real və Məğlubedilməz Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini düşmən əsarətindən azad etdi. Noyabrın 8-də Azərbaycan xalqı heç zaman yaşamadığı sevinci və fəxarət hissini yaşadı, 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bəli, Şuşaya nəzarət edən Azərbaycan Ordusu tarix yazdı. Arzumuz reallıq oldu. Şuşa öz sahibinin oldu. Ermənistan tam tərk-silah oldu. Düşmənin "ağ bayraq" qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Buna Ali Baş Komandan İlham Əliyev nail oldu. Ermənistan Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etdi. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan kapitulyasiya şərtlərinə razılığını verdi. Qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq. Bu haqqın qələbəsidir. Bu Azərbaycan xalqının qələbəsidir. Ali Baş Komandanımızın ətrafında xalqımızın yumruq kimi bir olmağımızın qələbəsidir, ərazi bütövlüyümüzün bərpasının reallaşdırılmasıdır. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir. Qarabağ Azərbaycandır!

---

## "Uşaqlara dövlət qayğısı işıqlı gələcək üçün etibarlı təminatdır"

***"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" ulu öndər Heydər Əliyevin uşaqlarımız haqqında söylədiyi bu dəyərli fikirlər bu gün də öz təsdiqini tapmaqdadır.***



Çünki hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Uşaq sağlam, cəmiyyətə faydalı vətəndaş kimi böyüyərsə, ölkənin parlaq gələcəyi də bir o qədər inkişaf edər. Son illər ölkəmizdə uşaqlara, gənc və yeniyetmələrə göstərilən dövlət qayğısının artması və bu sahənin daim diqqət mərkəzində saxlanılması bu amala xidmət edir.

Bu gün ümummilli liderin layiqli davamçısı, ölkə prezidenti İlham Əliyev də dahi şəxsiyyətin uşaqlarla bağlı xeyirxah ənənələrini uğurla həyata keçirir." Bu barədə "Sübhnur" Tədris Mərkəzinin rəhbəri Gülnarə Hüseynova mediaya açıqlamasında bildirib.

G.Hüseynova qeyd edib ki, ölkəmizdə uşaq hüquqlarının müdafiəsi istiqamətində vahid və güclü qanunvericilik bazası formalaşıb: "Dövlətimizin hər bir sahə üzrə uşaqlar üçün yaradılan geniş imkanlar, uşaqlara daim xüsusi diqqət və qayğının göstərilməsi, sağlamlığının qorunması, onlar üçün keyfiyyətli təhsil imkanlarının təmin edilməsi, layiqli vətəndaş kimi formalaşmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Elə bu amilin özü ölkəmizdə gələcək nəsillərin qayğısına qalmaq üçün olduqca vacib işlərin görüldüyünü əyani olaraq təsdiq edir".

---



## "Kəlbəcərin qızıl ehtiyatları ilə bağlı geoloji-axtarış işlərinə başlanılıb"

***İşğaldan azad edilən Kəlbəcər rayonu ərazisində böyük qızıl ehtiyatlarına malik Tutxun təzahüründə artıq geoloji-axtarış işlərinə başlanılıb. SİA-nın xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev UNEC İqtisadi Forumunda çıxışı zamanı deyib.***

Onun sözlərinə görə, Zərqulu, Qızılitən, Qərbi Qızılitən və Qazıxanlı sahələri üzrə geoloji və geofiziki işlər davam etdirilir. "Kəlbəcər rayonunun ərazisində yerləşən filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar Türkiyənin "Cengiz Holding" qrupuna daxil olan şirkətlərlə uzunmüddətli müqavilələr bağlanıb. İmzalanan müqavilələrin predmeti də məhz işğaldan azad olunmuş ərazilərimizdə dağ-mədən fəaliyyətinin başlanmasıdır. Layihələrin reallaşdırılması regionun təbii ehtiyatlarından səmərəli istifadə edilməsi və iqtisadi dövriyyəyə cəlb olunması, iqtisadiyyatının canlanması baxımından mühüm önəm kəsb edir. Bu, eyni zamanda həmin ərazilərdə yeni müəssisələrin və iş yerlərinin açılmasına töhfə verəcək", - deyə nazir qeyd edib.




# Budurmu "Qərb demokratiyası"?!

**ABŞ-dakı "Demokratiya Forumu"nun, əslində, həmin kirli siyasəti inkişaf etdirmək məqsədi daşıdığını da deyə bilərik**

ABŞ-da keçiriləcək və sözdə "Demokratiya Forumu" adlandırılacaq bir tədbirin, əslində, demokratiyaya və insan hüquqlarına heç bir aidiyyatının olmadığını bəri başdan demək mümkündür. Belə ki, ilk növbədə ağla gələn tamamilə başqa, fərqli assosiativ düşüncələrdir. Əgər bu gün bizlər Amerikanın özündə cərəyan edən çoxsaylı insan hüquqları pozuntularını, həmçinin, Avropa ölkələrində baş verənləri süzgəcdən keçirsək əvvəl başdan görərik ki, "Qərb demokratiyası" sadəcə, ifadədir və onun kökündə dayanan pərdəarxası məqamlar reallıqda ələ alınan xalqları, dövlətləri istismar etməkdir. Biz, bunu Qərbin demokratiya bayrağı altında bir sıra ölkələrdə gerçəkləşdirdikləri inqilablarda görmüşük. Bu baxımdan, ABŞ-dakı "Demokratiya Forumu"nun, əslində, həmin kirli siyasəti inkişaf etdirmək məqsədi daşıdığını da deyə bilərik.



Başqa yandan, o da sirr deyil ki, XXI əsrdə qloballaşma şəraitində milli dövlətlərə qarşı təsir mexanizmləri və vasitələri dəyişikliyə uğrayır. Klassik siyasi və iqtisadi vasitələrdən fərqli olaraq müəyyən ümumbəşəri dəyərlərdən istifadə olunur ki, bu sırada da "demokratiya" və "insan hüquqları" kimi institusional məfhumlar xüsusilə fərqlənir. Yuxarıda da qeyd etdiyimiz kimi, məsələ həm də ondadır ki, belə dəyərlər siyasi manipulyasiya vasitəsinə çevrilir, bunun fonunda çoxsaylı ikili standartlar nümunəsi ortaya çıxır. Ona görə də sözügedən kontekstdə daha bir neçə nümunəyə nəzər yetirə bilərik:



## Qərbin subyektiv "demokratiya" anlayışı - irqçilik, diskriminasiya, insan hüquqlarının pozulması!

Bu hallar daha çox özünü dünyaya "demokratiya keşikçisi" kimi təqdim edən Qərbin, xüsusilə də ABŞ-ın və Avropanın mövqe və siyasətində özünü göstərir. İkili standart faktı burada görünür ki, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Qərb ölkələrinin özündə çoxsaylı qanun pozuntuları, irqçilik, diskriminasiya, insan hüquqlarının məhdudlaşdırılması kimi halların mövcudluğu dünya ictimaiyyətinə yaxşı bəllidir. Xüsusilə də, vətəndaşlara qarşı ayrı-seçkilik, hüquq pozuntuları "demokratiya", "insan hüquqlarının qorunması" adı ilə pərdələnməkdədir. Ümumiyyətlə, bu ölkələrdə QHT-lər və digər vətəndaş cəmiyyəti institutlarının təzyiqlərə məruz qalması, mediaya yönəlik repressiv siyasətin həyata keçirilməsi, sərbəst toplaşmaq və vicdan azadlıqlarının pozulması kimi faktlar Qərb ictimai-siyasi mühitinin antidemokratik mahiyyətini göstərir.



## Faktlar Qərb ictimai-siyasi mühitinin antidemokratik mahiyyətini göstərir və ya Tofiq Yaqublu döyülməsinə görə niyə bu qədər sevinirdi?

Misal üçün, Fransada sarıjiletlilər, Amerikada zəncilərə qarşı başladılan aqressiv siyasət polis və vətəndaş arasında aşkar savaşlar, polis zorakılıqları, əzilmələr, həbslər, qəddarlıqlar "Qərb demokratiyası"nın iç üzünü - gerçək mahiyyətini dünyaya nümayiş etdirir.

İstənilən mövzuda etiraz aksiyaları keçirilərkən polislə toqquşmalar zamanı xəsarət alanların sayı minlərlə insanı ötüb-keçir. Fransada, Belçikada, Hollandiyada və s. Avropa ölkələrində etirazçıların qarşısı rezin güllələrlə, at ayaqları altında əzdirilməklə, itləri qısqırdılması ilə, təzyiqli su şırnaqları ilə alınır. Onu da qeyd edək ki, belə hallarda ölümlər də qeydə alınır və maraqlıdır ki, ABŞ və Qərb institutları nədənsə həmin hadisələrə münasibət bildirmirlər.



Lakin Azərbaycandakı emissarları müxalifətçilər adı altında təxribatlar törədərkən və nəticə etibarı ilə onlara həbsə məruz qalarkən dərhal ABŞ-dan, Avropadan hay-haraylar qalmağa başlayır. Məhz Qərbin bəlli qaranlıq dairələrinin təxribatları nəticəsində Tofiq Yaqublunun döyülməsi faktı (nədənsə həmin döyülməsindən sevinən Tofiq Yaqublunun özü və yaxınları döyülmə faktında sevincək olmuşdular) dərhal reaksiyalarla müşahidə olundu - bu plan deyildi bəs nə idi?

## Əgər ABŞ-da "Demokratiya Forumu" keçirilirsə, demək ki, yenidən "torbada pişik var"



Göründüyü kimi, Qərb demokratik dəyərlərə münasibətdə də "Avropa standartları"ndan deyil, məhz ikili standartlardan çıxış edir. Avropa və ABŞ-da mərkəzi hakimiyyətin iradəsinin bərqərar edilməsi zamanı toplaşma azadlığı, siyasi plüralizm, ifadə azadlığı kimi anlayışlar unudulur, dinc nümayişlər amansızlıqla dağıdılır, insanların səsvermə hüquqları kobud şəkildə pozulur. Amma digər ölkələrə münasibətdə dərhal "demokratiya", "insan hüquqları" məfhumları ortaya atılır, "Avropa dəyərləri", liberal hüquqlar yada düşür. Bu da həmin anlayışların, sadəcə, təzyiq vasitəsi kimi istifadə olunduğunu sübut edir.



Bir məqamı da xüsusilə diqqətə çatdırmaq lazımdır ki, Qərbdə heçə sayılan "dəyərlər" Azərbaycan kimi demokratik inkişaf yoluna malik olan hüquqi dövlətlərə qarşı təzyiq və "qara piar" kampaniyası aparmaq üçün istifadə olunur. Əlbəttə, bütün bunlar aşkar bir reallığı ifadə edir: bəzi Qərb dairələrinin Azərbaycana və müstəqil siyasət aparan digər ölkələrə qarşı bəhs olunan məfhumlardan istifadə edərək irəli sürdüyü ittihamlar tamamilə əsassızdır və təzyiq kampaniyasının tərkib hissəsidir. Və əgər ABŞ-da "Demokratiya Forumu" keçirilirsə, demək ki, yenidən "torbada pişik var" məsələsi yada düşür.

## Avropa dünyaya sırımağa çalışdığı "demokratiya dərsləri"ndən niyə özü yararlanmır?

Nəticə etibarilə, özünü dünyaya "demokratiyanın beşiyi" kimi təqdim edən Qərb ölkələrinin öz vətəndaşlarının hüquq və azadlıqlarına münasibəti aydındır. Qeyd etdiyimiz kimi, Avropada və ABŞ-da vətəndaşlara qarşı ən müxtəlif təzyiq üsullarına istinad edilir, insanlar repressiyaya və zorakılığa məruz qalırlar. Belə olan halda, demokratik siyasi sistemə malik olduğunu bildirən, dünyaya "demokratiya" dərsi keçməyə çalışan Qərb, eləcə də Avropa hansı haqla və ya əsasla demokratik dəyərlərdən və insan hüquqlarından bəhs edir? Sual olunur: müxtəlif ölkələrdə demokratiyanın vəziyyəti ilə bağlı ən müxtəlif iradlar səsləndirən ABŞ və Avropa siyasi dairələrinin özündə baş verənlər ikili standartlara, antidemokratik münasibətə dəlalət etmirmi? Və yaxud onların dünyaya sırımağa çalışdığı "Demokratiya Forumu"ndan özləri niyə yararlanmırlar?! Yaxşı olardı ki, bu sualların cavablarını versinlər və verə bilmirlərsə, bizə də dərs keçməyə qalxmasınlar, yoxsa daha çox ifşa olunmağa başlayacaqlar.

**Rövşən RƏSULOV**

# “İt-pişiyinizi yığışdırın!” - REAL və AXCP savaşı qızışdı

QARŞIDURMA

### Natiq Cəfərli: ”Tofiq Yaqublu siyasətçi olsaydı, döyülməzdi”

REAL və AXCP arasında qarşıdurma yenidən başlayıb. Buna səbəb REAL partiyasının funksioneri Natiq Cəfərlinin dekabrın 1-də Bakının mərkəzində keçirilən aksiya zamanı saxlanılan şəxslərlə bağlı münasibət bildirməsi olub. Bütövlükdə, bu kimi məsələlərin arxasında Əli Kərimlinin maraqlarının olmasına eyham vuran REAL təmsilçisinin ittihamları bilavasitə təxribatın əsas baiskarı olan Tofiq Yaqubli tərəfindən cavablandırılıb. Cəfərli Yaqublu tərəfindən ”malakeş” adlandırılıb. Belə ki, ”Azadlıq” qəzeti ”Facebook” sosial şəbəkəsindəki səhifəsində Natiq Cəfərlinin fikirlərini belə təqdim edib: ”Tofiq Yaqublu siyasətçi olsaydı, döyülməzdi”.

REAL partiyanın funksioneri isə AXCP rəhbərliyinə sərt cavab verib və sosial şəbəkələrdəki trolları dolayı yollarla ”it” və ”pişik” adlandırıb. SİTAT: ”Hürdürdüyünüz itlər mənə maraqlı deyil. Niyə yalan maşını kimi çalışırsız?! Niyə yalan uydurub məni söydürürsüz? Nədən bunu edirsiz?! Bu qədər kompleks hardandı sizdə?! Sözünüz var, üzümə deyin, it-pişiyinizi yığışdırın!”.

### REAL rəsmisindən AXCP-yə: ”Son kəs xəbərdarlıq edirəm, ailəmi, anamı söydürəcək qədər alçalmayın!”

Onu da bildirək ki, AXCP sədri Əli Kərimlinin trolları Natiq Cəfərlinin özü ilə yanaşı, onun ailəsini də hədəfə alaraq sözün əsı mənasında çərçivədən çıxıblar, heç bir milli-mənəvi dəyərlərə önəm verməyərək əslində nə qədər alçaq, simasız olduqlarını hərəkətləri ilə sübuta yetiriblər. Məhz bu baxımdan, REAL rəsmisi öz müraciətinin əsnasında bu fikirləri də irəli sürüb, hətta xəbərdarlıq edib: ”Son kəs xəbərdarlıq edirəm, ailəmi, anamı söydürəcək qədər alçalmayın!”.

Cəfərli AXCP-çilərin əsas trolbaşılarının və feyk xəbərlər yayanlarının Qənimət Zahid olduğuna da işartə edib və ”onların fikir babaları belə feyk yayan qənimət zahidlərdir. İyrənirəm artıq primitiv, tərbiyəsiz adamlardan...”, deyə o ittihamlarını davam etdirib.

***Rövşən RƏSULOV***

# “Əli Kərimli cavab verməlidir”

***"Vertolyot qəzasında həlak olmuş 14 şəhid zabitimizin dəfni günü Əli Kərimli və onun tör-töküntüləri olan milli xainlərin icazəsiz aksiya keçirməyə cəhd göstərmələri, ictimai asayişi pozan qanunsuz hərəkətləri şəhidlərimizə hörmətsizlikdir, qanunların pozulmasıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev bildirib.***



Onun sözlərinə görə, pandemiya və karantin dövründə hər hansı bir aksiyanın keçirilməsi qanunla qadağandır və belə aksiyaların təşkilatçıları və iştirakçıları qanunla inzibati məsuliyyət daşıyırlar: ”İkincisi bu aksiya qanunsuz keçirilirsə bu ikiqat məsuliyyət yaradır. Digər tərəfdən etiraz aksiyasının keçirilməsinin şəhid zabitlərimizin dəfni gününə salınması və ictimai asayişin pozulmasına cəhd naqis və təxribatçı niyyətin ortada olduğunun göstəricisidir. Məhz bu hüzünlü gündə qanunsuz mitinq keçirərək təxribat törətmək cəhdi siyasi nadanlıq və əxlaqsızlıqdır. Və xalqımız bu nankorların milli dəyərlərimizi təhqir edən belə davranışını haqlı olaraq qınayır və bu yaramazlara nifrətini və hiddətini bildirir.

”Saleh Rüstəmliyə azadlıq” aksiyası əslində bir təxribat idi. Təxribatçı başı Əli Kərimlinin və anti- milli şuranın bu təxribatı törətməkdə əsil məqsədi cənab Prezident İlham Əliyevin Soşidə və Aşqabadda qazandığı uğurlara kölgə salmaq, bu uğurları qəbul edə bilməyən etmənipərəst qüvvələrdən pul qarışıq aldığı sifarişləri yerinə yetirmək idi.

Kimdir Saleh Rüstəmli? Rusiyadan mənşəyi məlum olmayan qaranlıq mənbələrdən əldə etdiyi külli miqdarda vəsaiti ölkədə asayişin pozulmadına xidmət edən tədbirlər üçün qanunsuz yollarla Əli Kərimliyə ötürən bir kondrabandaçı. Özü də həm istintaqda həm də məhkəmədə günahlarını ehtiraf etmiş adam həbsindən xeyli müddət keçəndən sonra niyə aclıq eləsin ki? Deməli burada plan Azərbaycanın uğurlarını həzm edə bilməyən imperialist ağalara nökərçilik etməklə aldıqları sifarişi yerinə yetirməkdir. Aksiya zamanı guya döyülən ( əslində hansı şəraitdə xəsarət aldığı bilinməyən) Tofiq Yaqublu adlı şəxsin, eləcə də məhkum Saleh Rüstəmlinin birinci Qarabag müharibəsinin iştirakçısı olduğunu tez- tez vurğulayan müxalifətin böhtançı KiV və sosial şəbəkə fəallarının davranışı da siyasi əxlaqdan və hər cür etikadan çox kənardır. Heç şübhəsiz ki, bu qanunsuz və əxlaqsız mitinqi keçirməyə cəhd edənlərin əsil məqsədi Saleh Rüstəmlinin azad olunması istəyi deyildir. Əslində Saleh Rüstəmli də Tofiq Yaqublu da bu oyunda ”günah keçiləri”, kiçik peşkalardır və onların xəsarət alması , hətta ölməsi belə Əli Kərimliyə və anti- milli şuraya sərf edir.

Bəs nəyə görə bu qeyri- qanunu aksiya baş tutmayan kimi uzun müddətdir ki, komada olan Oqtay Gülüliyevin guya vəfat etməsi barədə feyk- xəbəri dövrəyə buraxdılar və bu kimə sərf edən xəbər idi?

Buna görə də hesab edirəm ki istintaq bu suallara aydınlıq gətirməlidir və ilk növbədə Əli Kərimlini dindirməlidir.

Bu xainlərin məqsədləri aydındır: Azərbaycanda ictimai asayişi pozmaq. Amma bu məqsədlərinə heç vaxt nail olmayacaqlar. Prezident İlham Əliyevin Azərbaycanı elə möhkəm özüllər üzərində bərqərar olub ki, onun nəinki bir kərpicini, hətta bir kərpicinin üzərindəki qum dənəciyini belə tərpətməyə xain qüvvələrin gücü çatmayacaqdır”.

***Abutel İlhamqızı***

# Mövsümi xəstəliklər artıb: koronavirusla qripi necə ayırd edək?

Mövsümlə əlaqədar olaraq qripə yoluxanların sayının artması müşahidə olunur. Bunu ”İki sahil”ə açıqlamasında həkim-infeksionist Könül İsmayılova deyib. Onun sözlərinə görə, yuxarı tənəffüs yollarının virus xəstəlikləri ilə COVID-19 infeksiyasının simptomları çox oxşardır.



”Yəni, hər ikisi baş ağrısı, əzələ ağrıları, yorğunluq, burun axması, boğaz ağrısı, halsızlıqla müşayiət olunur. Lakin istənilən halda heç bir klinik simptom əsasında diaqnozun dəqiqləşdirilməsi mümkün deyil. Yalnız PZR test, yəni polimer zəncirvari reaksiya testinə əsasən xəstəliyin koronavirus olub-olmadığını dəqiqləşdirmək olar. KT müayinəsi, ağciyərlərin rentgen müayinəsinin nəticələri və s. COVID-19 xəstəliyinin birbaşa olaraq göstəricisi deyil. Bu diaqnostik müayinələr sadəcə olaraq ağciyərdə gedən proseslərin ağırlaşma dərəcəsini təyin etməyə kömək edir" - deyə, K.İsmayılova bildirib.

Mütəxəssis koronavirusa qarşı ən effektiv vasitənin vaksinasiya olduğunu deyib və hər kəsi vaxtında peyvənd vurdurmağa çağırıb. ”Vaksinasiya infeksion xəstəliklərin profilaktikası üçün sadə və effektiv metod hesab edilir. Bir sıra infeksion xəstəliklərin qarşısı vaksinasiya hesabına nəzarətə götürülə bilir. Hazırda koronavirusa qarşı olan vaksinlər xəstəliyin ağırlaşmasının qarşısını alır”, - deyə infeksionist qeyd edib.

# Əlilərin, ”HƏP”lərin, vay-şivəni

İllər dəyişir, zaman öz axarı ilə davam edir. Amma bataqlıq təfəkkürü ilə yaşayan radikal düşərgə təmsilçilərinin hadisələrə aydın, xoş niyyətlə baxmaq adətləri dəyişmir. Əməlləri kimi siyasətləri də qara rəngdən ibarət olan AXCP sədri Əli Kərimli, xarici ölkələrdə tur ataraq Azərbaycan haqqında qara fikirlərini sərgiləyən ”Milli Şura”nın oyuncaq başçısı Cəmil Həsənli və onların əlaltıları üçün yaxşı fikir söyləmək cəhənnəm əzabından da betər işgəncədir. Radikallar dəstəsinə qoşulan Əli İnsanovun Haqq Ədalət Partiyası (HƏP) da qaragüruhçu əməllərini bu kontekstdə sərgiləyir.

***Havadarlarının sifarişlərini yerinə yetirən AXCP-nın, Haqq Ədalət Partiyasının, "Milli Şura"nın qaragüruhçuları siyasi səhnənin texniki personajlarıdırlar***



Azərbaycanın 44 gün davam edən müharibədəki Zəfəri, torpaqlarımızın işğaldan azad edilməsi, əsl sahibini gözləyən Zəngəzur dəhlizinə marağın artması, ölkəmizin dünyada möhkəmlənən nüfuzu belə bu qəflət yuxusuna gedənləri oyatmır. Bütün Azərbaycan xalqı siyasi əqidəsindən , milliyyətindən asılı olmayaraq uğurlarımıza milli birlik kimi sevinsələr də, adətlərinə sadiq qalan bu nakəslər əksinə mənfur niyyətləri ilə bu həmrəyliyə xələl gətirməyə çalışırlar.

Belə yerdə deyiblər ki, Əlisi dəli, Vəlisi dəli bu qırılmışın hamısı dəli. ”Bəyə xana yaradı, keçəl qıza yaramadı” misalına uyğun olaraq bütün uğurlarımıza qara pərdə arxasından baxan əlilər əlbir olaraq yenə də Azərbaycana xarici düşmənlərimizin gözü ilə baxır, onların dili ilə danışırlar. Azərbaycana olan xoş münasibəti özlərinin məhvi kimi anlayanların əqidəsi də amalı da varlanmaq, daha çox qrant sahibi olmaqdır.

Özləri lüks həyat keçirsələr də, bahalı maşınlarda gəzib, qorumaların əhatəsində dolansalar da yenə də ”ahvay” deməkdən usanmırlar. İqtidarda olduqları dövrdə xalqın başına açdıqları oyunları unudan, talan etdikləri dövlət əmlakından qazandıqlarını xarici ölkələrin banklarında gizlədən Əli Kərimli kimi adaşı Əli İnsanov da küncdə-bucaqda təxribat xarakterli əməllərini davam etdirir, respublikada aparılan islahatlara, işğaldan azad olunmuş ərazilərdə davam etdirilən bərpa-quruculuq işlərinə qara yaxmaqla məşğuldurlar. Amma həqiqət qarşısında acizliklərini hiss edən bu yaramazlar unudurlar ki, beş-üç nəfər özü kimi iqtidarsızları ətraflarına toplamaqla heç nəyə nail ola bilməyəcəklər. Ötən əsrin sonlarında xalqı aldadanlar, gəncləri mitinqlərə səsləyərək əvəzində xarici təşkilatlardan pul qoparanlara, meydan təfəkkürü ilə varlananlara inananlar yoxdur. İnsanlar bədniyyətli şarlatanlardan eşitdiklərinə deyil, gördüklərinə inanırlar.

1992-ci ildə Azərbaycan Xalq Cəbhəsinin səbatsızlığı üzündən xaos içində qalan respublikada baş verən hadisələr, ölkədə yaranan dözülməz vəziyyət, özbaşınalıq yaxın tariximizin qara səhifəsidir. Əli Kərimli, o dövrdə iqtidarda olan digərləri Azərbaycan xalqını dərin böhrana sürüklədilər. Ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. O illərdə düçar olduqları böhranlı günlərin şahidləri Xalq Cəbhəsinin iqtidarlıq dövrünü tariximizin qara ləkəsi, rüsvayçılıq dövrü adlandırırlar. Elə buna görə də Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi bir il dözə bildi, bir ildən sonra xilasları üçün ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət edərək ölkənin gələcəyini ona etibar etdilər. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Küçələrdə silahla gəzən əli silahlı quldurlar insanlarda xof yaradırdılar. Özlərini demokrat adlandıran bu ünsürlərin sabatsızlığı səbəbindən insanlar ədalətsizliyə məruz qalırdılar. O dövrdə prezidentin kabinetinin qapısını ayaqları ilə açırdılar. Dövlətin xəzinəsi boş idi, Xalq Cəbhəsi-Müsavat ləl-cavahirat fondunu belə talamışdılar.

İndi Azərbaycanda xarici qonaqların belə etiraf etdikləri inkişafın, yüksəlişin, əmin-amanlığın, torpaqlarının azad edilməsinin sevincini yaşayan insanların yüksələn əhval-ruhiyyəsi təbii ki, qaragüruhçuları narahat edir. Özlərinin varlığını hiss etdirmək, xarici təşkilatlardan qrant qoparmaq üçün bu inkişafa ləkə salanlar ölkəmizdəki quruculuğa, yüksəlişə qısqanclıqla yanaşırlar. Buna görə də qaragüruhçu əlilərin, ”HƏP”çilərin, ”şura”çıların təxribat yolunu tutmaqdan başqa əlacları yoxdur.

***Xuraman İsmayılqızı***

# 5 dekabr dünyada Beynəlxalq Könüllülər Günüdür



***5 dekabr dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu gün hər il BMT Baş Assambleyasının 1985-ci il 17 dekabr tarixində qəbul olunan qətnaməsi əsasında keçirilir. Qeyd olunan günün böyük anlamı var. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. "Könüllü" termininin etimologiyasına nəzər salsaq görərik ki, bu söz öz ilk dəfə 1600-cı illərdə istifadə olunub. "Hərbi xidmət üçün özünü təqdim edən" mənasını daşıyır.***



Müasir dövrümüzdə ölkəmizin demək olar ki, hər bir yerində könüllü gənclərin də payı var. Azərbaycanda həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək, həmrəylik kimi dəyərlər aşılamış olur. Qeyd edək ki, ötən il 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə ”Könüllülər ili” elan edilmişdir. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

### KÖNÜLLÜLÜK BİR ÇOX FƏALİYYƏT SAHƏLƏRİNƏ NÜFUZ EDƏRƏK, ÜMUMMİLLİ HƏRƏKATA ÇEVRİLİB

Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə ”Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu Qanunun məqsədi hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunun qəbul edilməsi Azərbaycan könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərin həyat tərzinə çevrilib. ”Regional İnkişaf” İctimai Birliyi, ”Bir” Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanı və bütün yerli icra hakimiyyəti orqanları yanında könüllü qrupları yaradılıb. Belə ki, bu gün ölkəmizdə ”Gənc Könüllülər”, ”RİİB Könüllüləri”, ”BİR Tələbə-Könüllülər”, ”Aqrar İnkişaf Könüllüləri”, ”KOB Könüllüləri”, ”Miqrasiya Könüllüləri”, ”Ədliyyə könüllüləri” və s. qurumlarda müxtəlif könüllülər təşkilatları uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradılıb. ”ASAN xidmət” mərkəzləri yarandığı gündən könüllülərin fəaliyyətindən geniş istifadə olunur. Könüllülər ”ASAN xidmət”in ayrılmaz tərkib hissəsinə çevrilib. Onlar yüzlərlə fərqli layihələr həyata keçiriblər, müxtəlif təlim və treninqlərə cəlb ediliblər. 2013-cü il dekabrın 19-da ”ASAN Könüllülərinin I Qurultayı” keçirilib. Əlbəttə ki, keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. Ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, ”Formula 1” yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır.

### AZƏRBAYCANIN MƏRD OĞULLARI VƏTƏN MÜHARİBƏSİNDƏ KÖNÜLLÜ OLARAQ, İSRARLI ŞƏKİLDƏ TORPAQLARIMIZIN MÜDAFİƏSİNƏ QALXDILAR

2020-ci il Vətən müharibəsində Azərbaycanın vətənpərvər oğulları könüllülüyün daha bir bariz nümunəsini əməldə ifadə etdilər. Ali Baş Komandanın ətrafında sıx birləşərək, Vətən müharibəsində iştirak etməyə qərər verdilər. İsrarlı olaraq, torpaqlarımızı müdafiə etməyə qalxdılar. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Vətənin müdafiəsinə qalxan oğullar erməniyə dərs vermək, işğal altında olan torpaqlarımızı azad etmək uğrunda könüllü olaraq orduda xidmət etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verdilər. Yaşından asılı olmayaraq, hər kəs müsəlləh əsgərə çevrildi. Sağlam düşüncəli gənclərimiz könüllü olaraq ön cəbhəyə yola düşdülər. Vətənin müdafiəsində dayandılar. Heç şübhəsiz ki, öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük əsasında cəmiyyət, vətən naminə təmənnasız işlərin görülməsi dayanır.

***Zümrüd BAYRAMOVA***



# Əlillərin sosial müdafiəsinə, reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına xüsusi qayğı göstərilir

***Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulub və Cənab Prezidentimiz İlham Əliyev, Birinci vitse-Prezidentimiz Mehriban Əliyeva tərəfindən də uğurla davam etdirilir.***

Azərbaycanda əlilliyi olan şəxslərin sosial müdafiəsi və tibbi-sosial reabilitasiyası dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir. Onların sosial müdafiəsinə, reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına xüsusi qayğı göstərilir.

*"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin rəhbəri*

Bu gün rəhbəri olduğum ”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İçtimai Birliyinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin maliyyə dəstəyi ilə Bakının Suraxanı rayonunda və Ağsu şəhərində Sağlamlıq imkanları məhdud uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzlərimizin fəaliyyəti bunun bariz nümunəsidir. Bu tipli Mərkəzlərin yaradılmasında əsas məqsəd xüsusi qayğıya ehtiyacı olan, xüsusilə də son illər Azərbaycanda sayı artmaqda olan autizmli və daun sindromlu uşaqlar da daxil olmaqla 100 uşağa sosial reabilitasiya xidmətlərinin göstərilməsi, onların müdafiəsini təşkil edərək xidmət və resurslardan yararlanmaq imkanlarına nail olunması, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya sahəsində ailələrin bilik və bacarıqlarını inkişaf etdirməkdir. Bu gün Sağlamlıq imkanları məhdud uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzləri demək olar ki, Azərbaycanın bütün rayonlarında fəaliyyət göstərir.

Bizim Mərkəzimizdə sosial xidmət sifarişi çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlara sosial-psixolji və tibbi reabilitasiya, abilitasiya, ailəyə dəstək və ailənin maarifləndirilməsi xidmətlərilər göstərilir, onların istirahətinin, asudə vaxtlarının səmərəli keçməsi üçün gəzintilər təşkil edilir, tədbirlər, müsabiqələr həyata keçirilir.

***Gülayə Səfərova***

SON SƏHİFƏ

Səs

4 dekabr
2021-ci il




# 50 ildən sonra Braziliya çempionu oldular

*Braziliya çempionatının qalibi sona iki tur qalmış müəyyənləşib. Qol.az xəbər verir ki, 32-ci turda "Bayya"nı məğlub edən (3:2) "Atletiko Mineyro" vaxtından əvvəl qızıl medalları təmin edib. Komanda bu nəticədən sonra xallarını 81-ə çatdırıb. İkinci pillədəki "Flamenqo"nun isə 72 xalı var. Qeyd edək ki, bu, "Atletiko Mineyro"nun tarixində ikinci çempionluğudur. Belu-Orizonti təmsilçisi ilk çempionluğunu 50 il əvvəl - 1971-ci ildə qazanıb.*



# Ronaldodan tarixi rekord: 800-cü qol!

*"Mançester Yunayted"-in hücumçusu Kriştiano Ronaldo, Premyer Liqa matçında "Arsenal" qarşısında karyerasında yeniliyə imza atıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, 800-cü qolunu vuran ilk oyunçu olub. 36 yaşlı oyunçu bu rəqəmə 4 fərqli liqa komandası və Portuqaliya forması ilə 1097 matç sayına çatıb.*

# İrina premyeraya bu geyimdə qatıldı, diqqət çəkdi



*Rusiyalı supermodel İrina Şeyk Nyu-Yorkda "Kabuslar xiyabanı" filminin premyerasına açıq-saçıq geyimdə qatılıb və şəbəkədə danlanıb.*

Milli.Az xəbər verir ki, müvafiq fotolar və şərhlər Daily Mail-də yer alıb. 35 yaşlı məşhur sinəsi açıq, dəri köynəklə birləşən tünd boz zolaqlı şalvarda çıxıb. Nəşrin oxucuları materialın altındakı şərhlərdə modelin xarici görünüşünü tənqid ediblər. "Bu qadın həmişə yorğun və kobud görünür", "Zövqsüz paltarlar seçir", "iyrənc paltar", "Ondan xoşum gəlir, amma bu paltar dəhşətlidir", "O, daha incə və daha az çılpaq görünməlidir" yazılıb.

# Alimlər təsdiqlədi: Zəncəfil və sarımsaq ömrü uzadır

*Alimlər zəncəfil və sarımsaqdan istifadənin insanı qocaldan soyuqdəymə prosesinin qarşısının alınmasında müsbət təsirini təsdiqləyirlər. "MedikForum" saytında yer alan məlumatda deyilir ki, araşdırmalara görə, yaşlaşma insan bədəninin fizioloji funksiyalarının pisləşməsi ilə xarakterizə olunur və bəzi xəstəliklərlə: ürək-damar, nevroloji, xərçəng, maddələr mübadiləsinin pozulması ilə əlaqələndirilir.*



Oksidləşdirici stres və iltihab yaşlanmanın inkişafına kömək edir. Aparılan tədqiqatlara istinad edən "Express" nəşriyyatı zəncəfil və sarımsaqdan istifadənin bu proseslərə müqavimətini artırdığını bildirir.

Sarımsaq. Tokioda Yakut şirkətinin təşkil etdiyi qocalma problemlərinə həsr olunmuş tədqiqat konfransında təqdim edilən nəticələrə görə, sarımsaqdan istifadənin bağırsaqların fəaliyyətini yaxşılaşdırması ömrün uzanmasına müsbət təsir göstərir. Alimlər ədviyyəli tərəvəzin bağırsaq üçün faydasını sarımsağın tərkibindəki "yaxşı" bakteriyaları artıran çoxmiqdarlı liflərlə əlaqələndirirlər. Bu mikroorqanizmlər xərçəng, kəmağıllıq, piylənmə və psixi xəstəliklərin yaranmasına təsir göstərə biləcək toksinləri ifraz edən zərərli bağırsaq bakteriyaları ilə mübarizə aparır.

Zəncəfil. ABŞ-ın Milli Tibb Kitabxanası zəncəfilin ürək-damar sisteminin vəziyyətinin göstəricilərini yaxşılaşdırmaq qabiliyyətini təsdiq edən məlumatları dərc edib: onun sayəsində triqliseridlərin və Aşağı Sıxlıqlı Lipoproteinlərdəki (ASL) "pis" xolesterinin səviyyəsi azalır.

"Express" həmçinin xəbər verir ki, zəncəfil neyrodegenerativ və metabolik pozulmalarla (şəkərli diabet, piylənmə) əlaqəli xəstəliklər də daxil olmaqla bəzi patoloji prosesləri boğmağa və tənzimləməyə qadirdir.

Zəncəfil və sarımsaq. "Sift Deck Research Page" dərc olunan tədqiqatın nəticələri antioksidant və iltihab əleyhinə təsirlərin sürətli qocalmadan qoruduğunu təsdiqləyir.

"Əvvəlki işlər, sarımsaqdan istifadənin orqanizmdə oksidləşdirici stresi azaldan qlutation kimi daxili antioksidantların səviyyəsini artırdığını göstərir. Öz növbəsində zəncəfil də iltihab əleyhinə təsir göstərir və bu xüsusiyyətlər qocalma prosesini ləngidir", - deyə elmi ekspertlər vurğulayır. Alimlər zəncəfil və sarımsağın ömrün uzanmasına təsirini çoxsaylı bioloji aktiv birləşmənin tərkibi ilə izah edirlər.

# "Qadınlar kişilərdən daha dözümlü və səbirlidirlər"



*Dünya Dalğıc rekordçusu Şahika Ercümen "Form Sante" jurnalına danışıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, 2022-ci ilin yayında dalğıc məktəbi açmağı xəyal etdiyini ifadə edib.*

Ercümən, "Bu idman növü ilə daha çox qadın və qızları tanış etməyi hədəfləyirəm. Qadınlar kişilərdən daha dözümlü və səbirlidirlər. Həqiqətən bir şey istədikləri zaman onun arxasınca getmək əzmi var".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**